Acınohur 1m №-li quyu. 1m №-li axtarış quyusu Acınohur rayonunun eyniadlı qırışığının tağyanı hissəsində qazılmışdır. Quyunun dərinliyi 3840 m-dir. Quyu məhsuldar qat çöküntülərini 2680-3650 m-də açmışdır. Elektrik karotaj materiallarının müqayisəsi zamanı müəyyən edilmişdir ki, 1m №-li quyu 3650 m-dən miosen çöküntülərinə daxil olmuşdur. 1m №-li Acınohur quyusunun məhsuldar qat çöküntülərinin müqayisəsi zamanı doqquz horizont ayrılmışdır.

l horizont 2680-2796 m (116 m qalınlığa malikdir) intervalda ayrılır. PS əyrilərinin ardıcıl pikləri bir neçə yüksək ρ_k 8 om.m pikləri ilə xarakterizə olunur.

ll horizont 2807-2890 m-də (83 m qalınlıqla) yerləşir. Kern məlumatları 2820-2830 m-dən götürülmüşdür və məhsuldar qat müəyyən edilmişdir. Əyrilər l horizontda olduğu kimi xarakterizə olunur.

lll horizont 2915-2950 m dərinlikdə yatır. Bu horizontun qalınlığı 35 m olub, PS piklərinin maksimal və ardıcıl qiyməti ilə xarakterizə olunur. ρ_k piklərinin qiyməti 8 om.m olmuşdur.

lV horizont 3052-3145 m (93 m qalınlıqla) intervalda yatır ki, eyni miqdarda gil və qumlu süxurların növbələşməsi ilə xarakterizə olunur. Yüksək ρ_k ilə təsvir olunmuşdur.

V horizont 3174-3248 m (qalınlığı 74 m-dir) intervalda yatır. Aydın ρ_k piklərinin əsasən kəsilişin sonlarına doğru yayılması ilə xarakterizə olunur. Kern məlumatlarına görə, 3162-3165 m intervalındakı süxurlar sıxlaşmış boz gil və boz alevrolitdən ibarətdir.

Vl horizontda 3285-3395 m (110 m qalınlığa malikdir) dərinlikdə yerləşir və çoxlu sayda ρ_k əyrilərinin pikləri ilə xarakterizə olunur. Kern və elektrokarotaj məlumatlarına görə, boz-qonur alevrolit, qonur alevrolitli gillərdən ibarətdir.

Vll horizont 3428-3500 m (72 m qalınlıqla) dərinlikdə olub, sıx qonur gil, əhəngdaşı süxurlarının növbələşməsi ilə təsvir olunmuşdur. ρ_k pikləri qeyd olunur.

Vlll-lX horizontları uyğun olaraq 3555-3578 m (qalınlığı 23 m) və 3589-3650 m (qalınlığı 61 m) intervallarda ayrılır. Hər iki horizont ardıcıl PS və ρ_k əyrilərinin yüksək pikləri ilə xarakterizə olunur. Kern məlumatlarına görə, quyu 3650-dən miosen çöküntülərinə daxil olmuşdur.

Taribani 16 №-li quyu. 16 №-li quyu Cənubi Kaxetiya çökəkliyinin Taribani sahəsində qazılmışdır. Quyunun dərinliyi 3000 m-ə qədərdir. Quyu 2555 m-ə qədər şirak dəstəsini açmışdır.

Quyu məlumatları və apardığımız analizlərə əsasən müəyyən edilmişdir ki, şirak dəstəsi 1390 m-ə qədər məhsuldar qat, 1390-2555 m intervalda isə pont və meotis mərtəbələrindən ibarətdir. 16 №-li quyu Acınohur 1m, Göyçay 3 və Kürovdağ 425 №-li quyu kəsilişləri ilə müqayisə edilmişdir və digər quyularda olduğu kimi, burada da doqquz qumlu horizont ayrılmışdır. Qumlu horizontların qalınlığı 40-150 m arasındadır.

l horizont 40-144 m-ə qədər (104 m qalınlığa malikdir) olan intervalda yatır və yüksək ρ_k piklərinin 20 om. m-dən artıq növbələşməsi ilə xarakterizə olunur.

ll horizont 170-244 m (qalınlığı 74 m) malik olub 18 om. m müqavimətlə təsvir olunmuşdur.

lll horizont 260-347 m (87 m qalınlıqla ayrılır) əks PS əyriləri və 14 om. m ρ_k pikləri ilə xarakterizə olunur.

lV horizont 452-546 m (94 m qalınlıqla) intervalda yatar. Horizont ikili PS əyriləri, kəsilişin sonunda isə yüksək ρ_k piki ilə nəzərə çarpır.

V horizontun 562-648 m (qalınlığı 86 m-dir) olub, yüksək PS pikləri və 14 om. m fərz olunan xüsusi müqavimətlə xarakterizə olunur.

Vl horizont 662-752 m (90 m qalınlıqla) intervalında yatır. Horizontda bir neçə ρ_k pikləri ayrılır və onun qiyməti 13 om. m-dir.

Vll horizont 784-900 m (78 m qalınlığa malikdir) dərinlikdə yatır. Üçlü ρ_k pikləri və ardıcıl PS əyriləri ilə təsvir olunmuşdur.

Vlll horizont 1020-1115 m (qalınlığı 95 m) intervalda yatır. İkili ρ_k piki ilə xarakterizə olunur.

lX horizont 1124-1198 m (74 m qalınlıqla) dərinliklə, digər horizontlarla müqayisədə qum və qumdaşı süxurlarının çoxluq təşkil etməsi ilə (60%) təsvir olunur.

Məhsuldar qatın quyu kəsilişlərində ehtimal edilən bölmələri litologiya məlumatları ilə də təsdiq olunur. Öyrənilən quyuların elektrokarotaj diaqramlarının litoloji sütunu qurulmuşdur. Bunun əsasında da hər doqquz horizont üçün qumluluğun faiz göstəricisi hesablanmışdır (2-ci cədvəl). Belə ki, quyuların kəsilişinin litoloji tərkibinə görə qumluluğun orta miqdarı hesablanmışdır: Kürovdağ 425 № - 60,4%, Göyçay 3 № - 47%, Acınohur 1m № - 50%, Taribani 16 № - 53,7%. Digər quyulara nisbətən Göyçay 3 № quyusu gilli hesab olunur. Burada qalın gilli laylar mövcuddur ki, bu laylar da yaxşı tələ rolunu oynaya bilər. Horizontlar arası bölgülərdə isə qumluluğun faizi aşağıdakı kimidir: Kürovdağ 425 № - 4,1%, Göyçay 3 № - 12,7%, Acınohur 1m № - 9%, Taribani 16 № - 16,8%.

Kürovdağ 425 №-li quyuda l-lV horizontlar reper horizontları olaraq Göyçay 3 №-li, Acınohur 1m №-li və Taribani 16 №-li quyularında da eyni horizontlar öz aralarında müqayisə edilmişdir. Bu horizontlar həm karotaj, həm də litoloji məlumatlara əsasən tutuşdurulmuşdur. Ayrılan horizontların qalınlıqlarının dəyişməsinə baxmayaraq, onlar qeyd olunan hər bir xüsusiyyətlərə görə müqayisə edilmişdir. Aparılan analizlərə görə, bu dörd horizontun oxşarlığı şübhə doğurmur və bu da hər bir öyrənilən sahədə məhsuldar qatın iştirakına sübutdur. Hori-

zontlarda bu dəstələr boyu məhsuldar qatın tavanı nisbətən aydın ayrılır. Buna baxmayaraq, elektrokarotaj məlumatlarına görə, məhsuldar qatın dabanı Göyçay və Acınohur sahələrində daha aydın ayrılır. Bu sərhəd, karotaja görə, oxşar kəsilişdə kobud dənəli süxurların fasiləsiz qatları ilə təsvir olunduğu halda, Taribani sahəsində nisbətən çətin müəyyən olunur. Buna görə də şirak dəstəsinin dabanı qalınlığının dəyişməsinə əsasən müəyyən edilir.

Beləliklə, Acınohur rayonunun, Aşağı Kür və Şərqi Kaxetiya çökəkliklərinin kəsilişlərində ayrılan bölgələr öyrənilən rayonların məhsuldar qat çöküntülərinin stratiqrafiyası haqqında ümumi təsəvvür yaratmağa imkan verir. Bu məlumatlar məhsuldar qat çöküntülərinin müxtəlif tədqiqatçılara görə bölgüsü və müqayisəsinə aid tərtib edilmiş cədvəldə (1-ci cədvəl) qeyd olunur.

Məhsuldar qatın kəsilişinin müqayisəsi Acınohurda Göyçay 3 №-li quyunun kəsilişində suraxanı (l-lX horizontlar) və sabunçu (X horizont), Acınohur sahəsində və Gürcüstanda Taribani sahəsində şirak dəstəsinin kəsilişində suraxanı dəstəsinin (analoqu) iştirakı müəyyən edilmişdir. Ehtimal etmək olar ki, Acınohur rayonunun şərq hissəsinin nisbətən çökək sahələrində sabunçu dəstəsinin digər Xl, Xll və ola bilsin ki, Xlll horizontları ilə təsvir olunur. Balaxanı dəstəsinin və məhsuldar qatın alt şöbələrinin dəstələri Acınohurun hüdudlarında iştirak etmir.


Məhsuldar qatın aydın stratiqrafik bölgüsü Azərbaycanın ərazisində Kür çökəkliyinin şimal-qərb hissəsində və Gürcüstanın hüdudlarında balaxanı əsrinin paleocoğrafiyasına daha təfsilatlı öyrənməyə imkan verir.

Əvvəlki tədqiqatçıların (Ализаде, Ширинов, 1959; Баженов, Ширинов, 1962; Алиев, 2004; «Атлас палеогеографич. карт Азербайджана», 2003) məlumatlarından istifadə edərək, yuxarıda geniş araşdırılmış məhsuldar qatın ayrılan horizont və dəstələrinə əsasən xəritə tərtib edilmişdir. Xəritədə tədqiq olunan rayonların hüdudlarında balaxanı əsri hövzəsinin yayılma sərhədinin dəyişməsi verilmişdir (2-ci şəkil).

2-ci cədvəl

Məhsuldar qat kəsilişinin stratiqrafik və litoloji tərkibi üzrə müqayisəsi

Horizontlar və bölgülər	Sahələr və quyular							
	Kürovdağ №425		Göyçay №3		Acınohur №1m		Taribani №16	
	Horizontların yatma intervalı,m	Qumluluq, %-lə	Horizontların yatma intervalı,m	Qumluluq, %-lə	Horizontların yatma intervalı,m	Qumluluq, %-lə	Horizontların yatma intervalı,m	Qumluluq, %-lə
l	1856-1958	61	2000-2107	48	2680-2796	55	30-143	44
l-ll	1958-1974	14	2107-2120	0	2796-2807	0	143-170	20
ll	1974-2072	57	2120-2216	42	2807-2890	53	170-244	51
ll-lll	2072-2090	0	2216-2254	20	2890-2915	18	244-308	26
lll	2090-2176	57	2254-2298	58	2915-2950	86	308-347	40
lll-lV	2176-2298	0	2298-2388	20	2950-3052	10	347-452	17
lV	2298-2370	80	2388-2490	43	3052-3145	49	452-546	50
lV-V	2370-2398	23	2490-2523	0	3145-3174	22	546-562	0
V	2398-2476	84	2523-2600	66	3174-3248	44	562-648	48
V-Vl	2476-2542	0	2600-2667	15	3248-3285	21	648-662	12
Vl	2542-2664	23	2667-2772	48	3285-3395	43	662-750	48
Vl-Vll	2664-2722	0	2772-2893	34	3395-3428	0	750-784	22
Vll	2722-2812	55	2893-3010	40	3428-3500	38	784-900	47
Vll-Vlll	2812-2852	0	3010-3065	25	3500-3510	10	900-1020	30
Vlll	2852-2970	50	3065-3175	25	3510-3578	43	1020-1115	48
Vlll-lX	2970-2992	0	3175-3192	0	3578-3588	0	1115-1126	25
lX	2992-3080	77	3192-3275	47	3588-3650	40	1126-1190	60
lX-X	3080-3150	2	3275-3288	28	-	-	-	-
X	3150-3278	47	3288-3365	39	-	-	-	-



2-ci şəkil. Acınohur və ona qonşu olan rayonlarda məhsuldar qat dəstələrinin yayılma arealı

Şərti işarələr:

1 – suraxanı lay dəstəsi və ya analoqu;
2 – sabunçu lay dəstəsi;
3 – balaxanı lay dəstəsi;
4 – quru;
5 – çöküntü toplanma istiqaməti;
6 – quyu.

Ümumiyyətlə, əvvəlki tədqiqatçılar tərəfindən qeyd olunduğu kimi, Acınohur və Kaxetiyanın hüdudlarında məhsuldar qat zamanında Böyük Qafqazın dağ ətəklərində, Cənubi-Xəzər çökəkliyində «apendiks» formasında, uzunluğu şimal-qərb istiqamətdə 200-250 km, eni şərqdə 90 km, qərbdə isə 30 km-ə çatan körfəz mövcud olub.

Kürovdağ neft yatağının məhsuldar qat kəsilişində Göyçay sahəsinin kəsilişində iştirak etməyən balaxanı dəstəsi iştirak edir. Buna görə də hesab etmək olar ki, balaxanı əsri hövzəsinin qərb sərhədi qeyd olunan sahələrin arasından keçir. Zamana görə sabunçu dəstəsinə keçməsi ilə əlaqədar hövzənin sahəsi genişlənir və bu dəstə Göyçay sahəsində (3 №-li quyu) hövzənin nisbətən çökək hissəsində Xl horizontla və ola bilsin ki, Xll, Xlll horizontlarla təmsil olunur. Bir qədər qərbə doğru Acınohur sahəsi 1m №-li quyunun kəsilişində sabunçu dəstəsinin horizontları iştirak etmir. Bu, sabunçu dəstəsi hövzəsinin qərb sərhədini Göyçay və Acınohur sahələri arasında müəyyən etməyə imkan verir.

Transqressiya və ola bilsin ki, transfuziya (Ализаде, 1960) məhsuldar qat əsrinin sonlarında Böyük Qafqazın dağətəklərindən cənubda Acınohur və Şərqi Kaxetiya rayonlarında suraxanı dəstəsinin hövzəsi daha geniş yayılmışdır (Məmmədova, 2005). Beləliklə, ilk dəfə olaraq öyrənilən reqion üçün məhsuldar qatın üst şöbəsi dəstələrinin yayılma sərhədləri müəyyən edilmişdir. Dəstələrin yayılma sərhədləri şərqdən qərbə doğru yuxarıda göstərilən quyuların kəsilişlərinin müqayisəsi nəticəsində, lakin hövzələrin şimal və cənub sər-

hədləri qalınlıqlar xəritəsi ilə təsvir edilmişdir. Məhsuldar qatın böyük qalınlıqları əsasən Acınohur rayonunda akkresiya prizmasında toplanır və ancaq Acınohurdan cənub istiqamətdə suraxanı dəstəsi süxurlarının toplanması dövründə hövzənin sərhədi genişlənir.

Məhsuldar qat çöküntülərinin bu quyularda ayrılan stratiqrafik horizontlarının fasial tərkibinin və məhsuldar layların sərhədlərinin dəyişməsi əsas xüsusiyyətlərdəndir. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Acınohurun hüdudlarında məhsuldar qat çöküntülərinin daha tam kəsilişi tədqiq olunan rayonun şərqində Göyçay sahəsində aşkar edilmişdir. Burada məhsuldar qatın kəsilişində suraxanı dəstəsi tam, sabunçu dəstəsinin isə üst hissəsi iştirak edir. Məhsuldar qatın aşağıda yatan dəstələri Acınohurun cənub-şərqində Aşağı-Kür neftliqazlı rayonunun hüdudlarında davam edir.

Qeyd olunduğu kimi, bir çox tədqiqatçılar Şərqi Gürcüstanda şirak dəstəsini Qərbi Azərbaycanda məhsuldar qat çöküntülərinin analoqu hesab edirlər. Biz bu fikirlə razılaşaraq, apardığımız analizlər nəticəsində məhsuldar qatı şirak dəstəsi ilə müqayisə etmişik. Faktiki materialların, quyu məlumatlarının tədqiqi zamanı müəyyən edilmişdir ki, məhsuldar qat şirak dəstəsinin üst hissəsinə aiddir. Bunu Acınohur rayonu ərazisində qazılmış Acınohur 1m №-li, Göyçay 3 №-li və cənubi Kaxetiyada Taribani sahəsində qazılmış 16 №-li quyuların analizi sübut edir. Taribani 16 №-li quyudan göründüyü kimi, şirak dəstəsi burada 30-1190 m dərinlikdə yatır. Ondan altda pont və meotis çöküntüləri yerləşir.

Beləliklə, Acınohur rayonu ilə yanaşı, Aşağı Kür və Cənubi Kaxetiya çökəkliklərinin hüdudlarında qazılmış quyuların litologiya və karotaj diaqramları məlumatlarından istifadə etməklə, qeyd olunan sahələrin məhsuldar qat kəsilişlərini daha dəqiq öyrənmək bizə qeyd edilən horizontlarda neft-qaz toplanan tələlərin mövcud olmasının proqnozunu verməyə imkan yaradır.

ƏDƏBİYYAT

АЛИЕВ, А.И. 2004. Условия формирования залежей нефти и газа в Южно-Каспийской впадине. *Известия НАНА. Науки о Земле*, 4, 13-24.

АЛИ-ЗАДЕ Ак.А. (под ред.) 2003. Атлас палеогеографических карт Азербайджана. М 1:500 000. *Фонд. ИГ НАНА.*

АЛИЗАДЕ, А.А. 1960. Палеогеография бассейна балаханского яруса. *АзИНТИ.* Баку, 66.

АЛИЗАДЕ, А.А., ШИРИНОВ, Ф.А. 1959. Литофация и сопоставление разрезов продуктивной толщи северного борта Куринской депрессии. *АНХ,* 5, 5-8.

БАЖЕНОВ, Ю.П., ШИРИНОВ, Ф.А. 1962. Геологическое строение южного склона Большого Кавказа. *Азернешр*. Баку. 195.

БАТУРИН, В.П. 1929. Отложения понта и акчагыла по Геокчаю и Агричаю. *АНХ,* 8-9.

БУЛЕЙШВИЛИ, Д.А. 1960. Геология и нефтегазоносность межгорной впадины Восточной Грузии. *Гостоптехиздат*. Ленинград. 237.

ВЕБЕР, В.В. 1933. Рекогносцировочный объезд полосы кайнозойских отложений между Шемахой и Аджиноурской степью. *ТНГРП, сер. А*, 23.

ДАДАШОВ, Ф.Г., ЭФЕНДИЕВ А.А. 1999. Сопоставление разрезов продуктивной толщи западного борта Южно-Каспийской впадины. *Труды АзНИПИ «Геология, поиск и разведка нефтяных и газовых месторождений Азербайджана».* Баку. 202-211.

КОВАЛЕВСКИЙ, С.А. 1936. Континентальные толщи Аджинаура. *АЗНЕФТЕИЗДАТ*. Баку. 180.

КУДРЯВЦЕВ, Н.А. 1935. К вопросу о соотношениях продуктивной и мирзаанской толщ. *АНХ,* 4, 43-49.

МАМЕДОВ, А.В. 1970. История тектонического развития Средне-Куринской впадины в кайнозое. *Фонд ИГНАНА. 1-2*

MƏMMƏDOVA, S.Ə.2005. Acınohur rayonunun mezozoy və kaynozoy eralarında paleocoğrafi inkişaf mərhələləri haqqında yeni məlumatlar. *AMEA, Geologiya İnstitutunun əsərləri*, 33, 168-174.

СУЛТАНОВ, А.Д. 1944. Литологическая характеристика продуктивной толщи Аджинаура. *Изв. АзФАН*, 6.

УЛЬЯНОВ, А.В. 1931. Геологические заметки о возрасте ширакской свиты в юго-восточной Кахетии. *АНХ*, 7-8, 26-31.

Məqaləyə g-m.e.d. Ş.A.Babayev rəy vermişdir

© V.A.Vəliyeva, M.N.Cəfərov, 2007

ABŞERON ARXİPELAQININ ŞİMAL-QƏRB HİSSƏSİNDƏKİ STRUKTURLARIN GEOLOJİ INKIŞAF XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN NEFT-QAZLILIQ PERSPEKTİVLİYİ

V.A.Vəliyeva, M.N.Cəfərov

Azərbaycan MEA Geologiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prospekti, 29A

Abşeron arxipelaqının şimal-qərb hissəsindəki strukturların geoloji inkişaf xüsusiyyətlərini öyrənməklə onların neft-qazlılıq perspektivliyi dəqiqləşdirilir. Bu strukturlar cavan platforma ilə alp geosinklinalı arasında keçid zonada yerləşdiyindən onların kəsilişində həm geosinklinal rejimdə mövcud olan MQ çöküntüləri, həm də platforma rejimində çökən mezozoy çöküntülərinin perspektivliyi əsaslandırılır.

Abşeron arxipelaqı strukturları tektoniki baxımdan əsasən Siyəzən monoklinalından başlayan və şərqdə B.Balxana qədər uzanan qalxımlar zonasının üzərində yerləşir. Abşeron arxipelaqının şimal və həmçinin şimal-qərb, şimal-şərq qalxımlarını cənub, cənub-şərq qalxımlarından ayıran Sumqayıt-Kəlkör sinklinalıdır.

Sumqayıt-Kəlkör sinklinalı asimmetrik quruluşa malik olub, şimal qanadı dik, cənub qanadı nisbətən az maillidir. Dərinə getdikcə qanadların yatma bucaqları artır. Sinklinalın mərkəzi hissəsində MQ dabanına görə (III seysmik horizont) 6400 m-dir.

Sumqayıt-Kəlkör sinklinalından şimalda yerləşən qalxımlar zonasının tektonikasının analizi göstərir ki, onların şimalında yerləşən Skif-Turan platforması bu qalxımların dislokasiyasına öz təsirini göstərmişdir, kəsiliş boyu yuxarıya doğru strukturların inkişaf intensivliyi sönür, quruluşlarında bir qədər fərq yaranır, lakin onların irsiliyi saxlanılır, kəsiliş boyu yuxarıya doğru tağların cənub-şərq yerdəyişməsi qeyd olunur. Bunu xüsusi ilə aşağıdakı qalxımların timsalında izləmək olur:

Şimali Abşeron strukturu dərinliyə getdikcə yaxşı əks olunur, yuxarıya doğru isə kəsilişdə strukturun mailliyi azalır, I seysmik horizonta (I sh) görə monoklinal fonda itir, Sabunçu laydəstəsi artıq horizontal yatır, MQ tavanı yer səthinə çıxır. Bu strukturda 1, 2, 4, 5, 6 saylı quyular qazılıb və onun tağ hissəsi dəqiqləşdirilib. Kəsilişdə pliosen-miosen-oliqosen çöküntüləri bucaq və stratiqrafik uyğunsuzluqla müxtəlif yaşlı çöküntülər üstündə yatır.

Şimali Abşeron qalxımından cənub-şərqdə gümbəzə bənzər Şərqi Abşeron, Xəzri və Gilavar qalxımları yerləşir, bunlar bir struktur topada yerləşib bir-birlərindən yəhərvari şəkildə ayrılır. Bu qalxımlar epihersin platforması və alp qırışıqlığı arasında yerləşərək keçid zonanı təşkil edir. Bu strukturlarda MQ-nin dabanı 1000-1800 m dərinlikdə olduğu halda, şərqə doğru gömülərək Əşrəfi strukturunda 4000 m-ə çatır. MQ-nin dabanının yatma dərinliyinin cənub-şərq istiqamətində artmasına baxmayaraq, Xəzri, Gilavar, Arzu və digər qalxımlarda onun QaD, QA və QD laydəstələrinin kəsilişdən düşməsi müşahidə olunur. Belə ki, bu qalxımlar platforma tipinə oxşar gömülmüş qalxımlardır. Onlar MQ-nin alt hissəsində dislokasiyaya uğramış və yuxarıya getdikcə sönürlər. MQ-nin dabanına görə qalxımların qanadlarında yatma bucağı 2-5^0-dən artıq deyil. Bu qalxımlarda kəsiliş boyu dərinlikdə miosen, təbaşir çöküntülərində dislokasiyanın artdığı, qalxım sahəsinin kiçildiyi (layların dikəlməsi hesabına) və qanadlarda yatma bucağının 30^0-dən də artıq olduğu müşahidə edilir. Arzu qalxımında təbaşır çöküntüləri 78^0 altında yatır.

Beləliklə, Abşeron arxipelaqının şimal-qərb sahəsindəki qalxımlarda MQ çöküntüləri özündən altda yatan miosen çöküntüləri üzərində transqressiv yataraq, qərbə doğru onun daban hissəsindəki lay dəstələri ardıcıl olaraq pazlaşır. Belə pazlaşmış laylarda stratiqrafik və litoloji qeyri-antiklinal yataqların olması mümkündür.

Məlum olduğu kimi, MQ çöküntüləri abşeron fasial tipinə aid olub 65%-ə qədəri qum-alevrit suxurları ilə səciyyələnir (Халилов и др., 2000).

Qranulometrik tərkib orta hesabla aşağıdakı kimidir: 0,25 mm fraksiyada-4% qədər; 0,25-0,1mm - 11%; 0,1-0,01mm - 48% və 0,01mm - 37%.

Petroqrafik tərkib orta hesabla götürülmüş bir neçə şlif analizinə görə; qumlu laydəstəsində

qum və alevrolitlər 49,6%; gil 41,7%; xlidolitlər 8,7% təşkil edir.

Qumların məsaməliyi orta hesabla 15,2%, keçiricilik 145 md-ir.

Qumlu alevritli suxurlar kvars dənəlidir, kvars yüngül fraksiyada 59,6% təşkil edir. Yüngül fraksiyada çöl şpatları əsasən K-çöl şpatından ibarətdir (1,2%), süxur qırıntıları, mika, əhəng argillitləri (5,2%), silisium dənələri (1,2%), xalsedon (0,4%) və bəzi qumdaşı parçaları (0,4%), qeyri-üzvi karbonat dənələri (2,0%), üzvi karbonat dənələri (çanaq əhəngdaşı qırıntıları) – 2,0%-dir.


MQ süxurlarının ağır fraksiyası əsasən ağır minerallardan olan sirkondan ibarətdir.

MQ-nin ən çox qala lay dəstəsində gillərin artdığı müşahidə olunur, çünki QaD-i pont, diatom və ya maykop çöküntüləri üstündə yatır və onun altında yatan laylar adətən öz gilliliyi ilə xarakterizə olunur (Нариманов, 1988).

Qala laydəstəsinin yayılma sərhədini əks etdirən xəritədən göründüyü kimi, bu çöküntülər Abşeron arxipelaqının şimal-qərbində yerləşən strukturlarda əks olunmur, qala lay dəstəsi zamanında bu qalxımlar dənizin sərhədindən kənarda qalmışdır.

Abşeron neftli-qazlı rayonunda əsas neftli-qazlı obyekt olan MQ çöküntülərinin yayılma sərhədini MQ-nın və onun alt şöbəsi çöküntüləri üzrə qurulmuş qalınlığ xəritələrinə görə müəyyən etmək olur. Bu xəritələr həmin dövrün paleocoğrafiyasını da əks etdirir (1-ci şəkil).

Məlum olur ki, alt pliosen dövrünün əvvəlində dənizin sərhədi bir az kiçilmiş və Abşeron yarımadasının cənub hissəsini və Abşeron arxipelaqını əhatə etmişdir. Qala lay dəstəsinin (QaD) arealı onun Abşeron arxipelaqının şimal-qərbindəki strukturlardan kənarda olduğunu göstərir. Qərbi Abşeron, Şimali Abşeron, Xəzri, Gilavar, Arzu strukturları epihersin platforması və alp qırışıqlığı arasında keçid zonasında olduğundan onların geoloji kəsilişində QaD, QA dəstə və bəzən QD-də ixtisara düşür. Dənizin reqressiyası nəticəsində Abşeron sayının cənub-şərq periklinalı (3, 4, 5, 8, 10 №-li quyular) QaD dənizi daxilində, şimal-şərq qanadı bu dənizin kənarında qalır və QD çöküntüləri pont üzərində qeyri-uyğun yatır. Mərdakan-dəniz strukturunun uzaq cənub-şərq periklinalında (19 №li quyu) QaD çöküntüləri cəmi 56 m qalınlığında müşahidə olunur.



1-ci şəkil. MQ-nin bərabər qalınlıqlar xəritəsi

1 - Qala dəstəsi; 2 - Qırmakualtı dəstə; 3 - Qırmaku dəstə; 4 – MQ-nin üzə çıxması;
5 - MQ-izopaxitləri; 6 - MQ-alt şöbəsinin izopaxitləri; 7 - Quyular.

Qırmakualtı (QA) lay dəstəsi zamanında dəniz öz sərhədini genişləndirmiş və Şimali Abşeronda hələ Qala lay dəstəsi dövründə quru olan Ağburun-dəniz (10-50 m), Abşeron sayı (70 m) tədricən su altında qalmışdır, lakin onun şimal-qərb qanadı dənizin kənarında qaldığından çöküntü toplanmamışdır. Qoşa Daş strukturu da dənizin sərhədindən kənarda qalmış, Gilavar və Əşrəfi qalxımlarında isə QaD çöküntüləri toplanmışdır.

Qırmaku lay dəstəsi dövründə dəniz özündən əvvəlki QaD və QA dənizi sərhədlərindən çox geniş olmuşdur, şimal-qərbdə Şurabad-dəniz, Yaşma-dəniz, Kürkəçidağ-dəniz və Sarıqayabaşı qalxımlarının şimal-şərq və şımal qanadlarından başlayaraq şərqə doğru genişlənmişdir. Qoşa Daş bundan əvvəlki QaD və QA dənizində quru olduğu halda, Qırmaku dənizində 140-150 m çöküntü qatına malikdir. Ağburun-dəniz və Abşeron sayı qalxımları arasındakı sinklinalda bu çöküntülərin qalınlığı 250 m, cənub-şərq periklinalda isə 280 m-ə çatır. Özündən əvvəlki zaman kəsiyində olan dövrdə quru olan sahələr artıq dənizlə örtülmüş və Xəzri, Gilavar, Arzu, Novxanı, Əşrəfi, Qarabağ və b. qalxımlar Qırmaku dənizi altında qalmışdır.

Tərtib edilən bərabər qalınlıqlar və paleostruktur xəritələr struktur-tektonik kriteriləri aydınlaşdırmağa imkan vermişdir ki, bunun da əsasında Sumqayıt-Kəlkör sinklinalından şimalda yerləşən Abşeron arxipelaqının şimal-qərb hissəsindəki qalxımlarda (Ş.Abşeron, Şərqi Abşeron, Qərbi Abşeron, Xəzri, Gilavar, Arzu və b.) MQ çöküntülərinin alt şöbəsindəki lay dəstələrinin yuxarıya doğru pazlaşması, çöküntü toplanmada yaranan fasilənin müəyyən stratiqrafik vahidlərin ixtisarına səbəb olması aydınlaşdırılmışdır. Beləliklə də, qeyri-antiklinal tələlərin yaranması, onların varlığı öz təsdiqini tapmış olur.

Qeyri-antiklinal tələlərdən stratiqrafik və həmçinin litoloji tələlərin də mövcudluğunu və kollektorların pazlaşmasını öyrənmək məqsədi ilə bir neçə şlif analizləri tədqiq edilmişdir: Abşeron sayı, Gilavar, Xəzri, Qərbi Abşeron və Arzu strukturlarında pliosen çöküntüləri əsasən qalın qum və gil qatlarının növbələşməsindən ibarətdir.


Tədqiq olunan regionda MQ-nin alt şöbəsi olduqca maili yatır və bu çöküntülər miosen çöküntüləri ilə bucaq və stratiqrafik uyğunsuzluq təşkil edir, çöküntülərin qalınlığı isə, az da olsa, qanada doğru artır. Miosen-paleosen çöküntülərinin tərkibi incədənəli, seyrək qum və alevrit təbəqələri olan qalın, monoton sıx gillərdən təşkil olunmuşdur.

Abşeron sayı, Xəzri, Arzu strukturlarında təbaşir çöküntüləri qazıma vasitəsilə açılıb. Abşeron arxipelaqının şimal-qərbində üst təbaşir çöküntüləri əsasən mikalı, karbonatlı boz gillərdən ibarət olmaqla, kəsilişdə möhkəm sementləşmiş orta və xırdadənəli alevrit və qumdaşıları laycıqlarına rast gəlinir. Xəzri yatağında 4327-4310 m intervalda alt təbaşir, Arzu strukturunda 2 saylı quyu 4775 m dərinliyə qədər qazılmış, üst və alt təbaşir çöküntüləri açılmışdır. Gilavar strukturunda 2 saylı quyu 5048 m dərinliyə qədər qazılmış və konyak, turon, barrem çöküntüləri açılmışdır. Xəzri strukturunda üst təbaşir çöküntülərindən 4300 m dərinlikdən az miqdarda (sutkada 6-7 min m^3) qaz alınmışdır (Xəlilov və b., 2002). Təsvir olunan regionun Abşeron sayı və Şimali Abşeron, Xəzri, Arzu qalxımlarından keçən paleoprofillər bu strukturların tektonik inkişaf xüsusiyyətlərini göstərir.

Abşeron sayı strukturunun inkişafını əks etdirən paleoprofildən (2-ci şəkil) göründüyü kimi, diatom lay dəstəsi çöküntü qatı əmələ gələn zaman qalxım artıq formalaşmış və asimmetrik quruluşda olmuşdur, nisbətən dik (6^0 bucaq altında) cənub-qərb və yastı şimal-şərq (3^0) qanadları ilə səciyyələnir. Bu dövrdə pozğunluqların əmələ gəlməsi müşahidə olunmur.

Pont dövründə qalxma müşahidə olunur, strukturun tağında bu çöküntülər toplanmamış, lakin qanadlarda tam qalınlıqda quyular vasitəsilə açılmışdır. Pont dövründə başlanan qalxım davam etdiyindən qala lay dəstəsi çöküntüləri strukturunun yalnız uzaq cənub-şərq periklinalında toplanmışdır. Qırmakualtı dəstə toplanan zaman, strukturun tağ hissəsi istisna olmaqla, qanadları dənizlə örtülmüş, qanadlarda QA dəstənin qalınlığı 100-120 m-ə çatmışdır, hər iki qanadda maillik 1^0 olmuşdur, lakin altda yatan laylarda bu yatım bucağı $8\text{-}12^0$ (pont) ilə $12\text{-}14^0$ (diatom) arasında olmuşdur. Onun tağ hissəsində 2 və 17 saylı quyular arasında $70\text{-}75^0$ altında, 10 m amplitudalı pozğunluğun yarandığını müşahidə etmək olur.

Qırmaku dəstəsi toplanan zaman ilk vaxtlarda struktur qalxmış və dəniz səviyyəsindən yuxarıda olduğuna görə çöküntü yığılma prossesində fasilə əmələ gəlmiş və nəticədə QD-nin aşağı hissəsi quyu kəsilişlərində yoxdur. Bu vəziyyət quyuların karotaj diaqramında əks olunur və QD qalınlığının azalması ilə müşahidə edilir. QD qalınlığı qanadlarda 200-220 m, tağda isə 70-100 m təşkil edərək stratiqrafik və bucaq uyğunsuzluğu ilə diatom dəstəsi üstündə yatır. QD yatım bucağı cənub-qərbdə 1^0, şimal-şərqdə isə 3^0 təşkil edir.



2-ci şəkil. Abşeron sayı qalxımından keçən paleotektonik profillər

1 - diatom çöküntülərinin çökməsinin sonu;
2 - pont çöküntülərinin çökməsinin sonu;
3 - QAD çöküntülərinin çökməsinin sonu;
4 - QD çöküntülərinin çökməsinin sonu;
5 - QÜQ çöküntülərinin çökməsinin sonu;
6 - QÜG çöküntülərinin çökməsinin sonu;
7 - FD çöküntülərinin çökməsinin sonu;
8 - MQ-üst şöbəsinin üst lay dəstələrinin çökməsinin sonu.

QÜQ və QÜG dəstələri toplanan zaman qalxım dəniz altında qalmış və çöküntü toplanması ilə yanaşı, qalxma prossesi də getmişdir. Müvafiq olaraq qalınlıq 50 və 80 m qanadlarda, tağda isə 30-60 m-dir. Bu layların yatma bucağı 1-2^0 olduğu halda, altda yatan laylarda bu rəqəm artıq cənub-qərb qanadda 13^0-yə, şimal-şərq qanadda isə 16^0-yə çatır. Struktur quruluş asimmetrik olaraq qalır, qırılmanın amplitudası isə 110 m-ə çatır.

Fasilə lay dəstəsi zamanında da struktur hələ QÜQ lay dəstəsi vaxtından başlayaraq qalxmaya məruz qalmış, tağında bu çöküntülər 25-30 m, qanadlarda isə 50-120 m təşkil edir. Tağda nisbətən çöküntülərin yuyulması və pozğunluğun amplitudasının 120 m-ə çatdığı əks olunur.


MQ-nin üst laydəstələri toplanan zaman layların yatım bucağının çox artdığı və onun şimal-şərq qanadda 35^0-yə, cənub-qərbdə isə 24^0-yə çatdığı (diatom lay dəstəsinə görə) müşahidə

olunur. Bu çöküntülər qanadlarda 550-660 m qalınlıqda toplandığı halda, tağda yuyulduğu üçün iştirak etmir.

Diatom lay dəstəsinin dabanına görə pozğunluğun amplitudası artaraq 140 m-ə çatmışdır.

Analoji olaraq Şimali Abşeron, Xəzri və Arzu qalxımlarından keçən xətt üzrə paleoprofil (3-cü şəkil) qurulmuş və miosen çöküntülərində strukturlarda qalxma prosesinin mövcudluğu təsdiq olunmuşdur. Bu qalxımların MQ-nin üst şöbəsinə görə getdikcə sönərək gömülmüş xarakterli olması müşahidə olunur.

Aparılan analiz tədqiq olunan sahələrin tektoniki inkişaf tarixini aydınlaşdırır və çöküntü çökmə prossesi ilə qalxma–struktur əmələgəlmə prosesinin (gömülmüş strukturlar istisna olmaqla) paralel getdiyini, qırışıqlığın inkişafı ilə yanaşı, pozğunluğun amplitudasının artdığını təsdiq edir.



3-cü şəkil. Şimali Abşeron-Xəzri-Arzu qalxımlarından keçən paleotektonik profillər

1 - miosen çöküntülərinin çökməsinin sonu;
2 - MQ çöküntülərinin çökməsinin sonu;
3 - Ap+Ak çöküntülərinin çökməsinin sonu;
4 - dördüncü dövr çöküntülərinin çökməsinin sonu.

Tədqiq edilən regionda qeyri-antiklinal tələlərə miosen-paleogen və mezozoy çöküntülərində də rastlaşmaq olar.

Şimali Abşeron akvatoriyasında paleogen-miosen çöküntüləri Siyəzən monoklinalının dənizdə davamı olan sahələrdə perspektivli sayıla bilər. Burada qovundağ, maykop dəstəşi və çokrak horizontu çöküntülərində karbohidrogen yığımları gözlənilir.

Qoşa Daş, Ağburun-dəniz qalxımlarının cənub-qərb bloklarında oliqosen-miosen çöküntüləri neft-qazlılıq cəhətcə perspektivli sayıla bilər. Bu sahələrdə paleogen-miosen çöküntüləri böyük qalınlığa malikdir. Bu qalxımların tağları uzununa keçən yarıqlarla mürəkkəbləşmiş və yarıqyanı parçalanma zonalarında çatlı kollektorlarla əlaqədar olan neft-qaz yığımlarının toplanması mümkündür.

Məlum olduğu kimi, Abşeron arxipelaqında ən qədim qalxımlar yura çöküntüləri ilə əlaqədardır. Böyük Qafqazın cənub-şərq batımının dənizdə davamı olan Abşeron arxipelaqı zonasında struktur tələlərlə yanaşı, orta yuranın qumlu-gilli çöküntüləri ilə əlaqədar olan litoloji və tektonik ekranlaşmış tələlər əmələ gələ bilər.

Təngi-Beşbarmaq antiklinoriumunda Qalaaltı, Beşbarmaqda müasir dövrə qədər yuyulmalardan qorunub saxlanan rifogen qurumların dənizdə Abşeron arxipelaqında üst yura, alt təbaşir çöküntülərində gömülüb saxlanılması istisna olunmur.

Böyük Qafqazın cənub-şərq batımı və onun dənizdə davamı olan Abşeron arxipelaqının paleocoğrafi inkişafı tarixinin bərpası (Салаев, 2001) göstərir ki, alt yura dövründə Abşeron arxipelaqı və Azərbaycanın bütöv şimal-şərq hissəsi dərin çökməyə məruz qalmışdır, bu, Böyük Qafqazın geosinklinal inkişafının erkən alp mərhələsinə uyğundur (Хаин, 1950). Bu dövrdə yura hövzəsində qalın qum-şist formasiyası toplanmışdır.

Orta yura dövründə təsvir olunan sahədə çökmə prosesi davam etmiş və 2500 m-lik çöküntü qatı toplanmışdır.

Gec yura və erkən təbaşir dövründə Böyük Qafqazın cənub-şərq davamının geoloji inkişafı rejimində inversiya baş verir ki, bu özünü üst yura süxurlarının dayaz dəniz fasiyasını əks etdirən litofasial xarakterində təsdiq edir. Bu dövrdə Təngi meqantiklinoriumu və Xızı pilləsi Germian fleksurasına qədər dayaz dəniz zonasını təmsil edirdi ki, bu da əlverişli iqlim şəraiti ilə yanaşı, burada zoogen rif əhəngdaşlarının, konq-

lomerat-brekçiya və qumlu-gilli əhəngdaşılı çöküntülərin əmələ gəlməsinə səbəb olmuşdur. Belə litofasiyada üst yura, alt təbaşirin rifogen çöküntüləri cənub-şərqdə - Şimali Abşeron akvatoriyasında da yayılmışdır (Салаев, 2001).

Alt təbaşir dövrü Xızı zonasında normal dəniz hövzəsini xarakterizə edir, bu, Təngi meqantiklinoriumundan cənub və cənub-şərq istiqamətdə çökmə prosessinin artmasında özünü göstərir.

Təbaşir dövründə cənubi-şərq Qafqazın oxyanı zonasının mezozoy qırışıqlığı ümumi regional planda sualtı kordilyerdən ibarət olmuşdur və iki dərin çökəklik - Terek-Xəzər və Dibrar çökəklikləri arasında yerləşmişdir. Bu çökəkliklərin yamac hissələrində təbaşirin ayrı-ayrı stratiqrafik vahidlərinin pazlaşma zonalarında stratiqrafik və litoloji tip tələlərin və o cümlədən alt təbaşir çöküntüləri ilə əlaqədar olan rifogen qurumların olması mümkündür.

Germian dərinlik yarığının Şimali Abşeron zonasında çox böyük təsiri olmuşdur, onun təsirindən şimal bloku cənub bloka nisbətən çox intensiv çökməyə məruz qalmış və Qoşa Daş, Abşeron sayı strukturlarının şimal qanadlarının yüklənməsi artmışdır, çöküntülərin qalınlığı 3000 m-ə çatmışdır (Салаев, 2001).

Bu baxımdan alt təbaşir çöküntülərində karbohidrogen yığımları üçün əlverişli kollektorları Abşeron sayı, Ağburun-dəniz, Şimali Abşeron, Qərbi Abşeron, Xəzri, Arzu strukturlarının şimal-şərq qanadlarında gözləmək olar.

Üst yura, alt təbaşirin qədim yura qalxımının yamaclarında stratiqrafik, litoloji tip karbohidrogen yığımları tələlərinin olacağını güman etmək olar. Bu baxımdan qravimetrik kəşfiyyatın mezozoy çöküntülərinə aid olan Darvin bankasında aşkar etdiyi struktur qalxım əhəmiyyətlidir.

Cənubi-şərq Qafqazın və onun dənizdə davamı olan Abşeron arxipelaqının üst yura və alt təbaşir çöküntülərinin neft-qazlılığı yüksək kollektor xüsusiyyətlərinə malik olan rifogen qurumlarla əlaqədardır. Son zamanlar rif qurumlarının müəyyən edilməsində xüsusi geofiziki üsullardan istifadə edilir. Rifdən altda və üstdə yerləşən sərhədlərdən əks olunan dalğanın keçmə vaxtlarının fərqləri və rif qurumundan keçən və biohermin yerləşdiyi süxura görə sıxlığın çox olmasından yaranan dalğa sürətləri anomaliyalarının qeyd olunması prinsipinə əsaslanan tədqiqatlarla Xəzərdə bir sıra rif qurumları olan qalxımlar müəyyən edilmişdir (Ахмедов, Гаджиев, 2000).

Beləliklə, təqdim olunan paleoprofillər Sumqayıt-Kəlkör sinklinalından şimalda yerləşən qalxımların inkişaf xüsusiyyətlərini aydınlaşdırmış, qurulan paleostruktur xəritə isə regionun geoloji inkişaf tarixini əks etdirmişdir. Regionda paleogen-miosen və pliosen struktur mərtəbələrinin mezozoy struktur mərtəbəsini təkrar etmədiyi və mezozoy dövründə rif qurumlu subşaquli dik biogermlərin olacağı, onların neft-qazlılıq baxımından perspektivliyi, Abşeron sayı, Xəzri, Gilavar və Arzu qalxımlarında 6000 m dərinlikdə quyuların layihələndirilməsi təklif olunur.

ƏDƏBİYYAT

XƏLİLOV, N.Y., XIDIROVA, R.A., XEYİROV, M.V. 2002. Karbohidrogenlərin Şimali Abşeron qalxımlar zonasının kollektorlarında paylanmasını təmin edən litostratiqrafik kriterilər. *Sadə insan, yorulmaz tədqiqatçı*.- kitabında. Nafta-Press. Bakı. 148-159.

АХМЕДОВ, А.К., ГАДЖИЕВ, С.С. 2000. К вопросу о поисках карбонатно-рифовых образований в разрезе верхней юры и верхного мела Абшероно-Прибалханской зоны поднятий. *Геолог Азербайджана,* 4, 94-103.

НАРИМАНОВ, А.А. 1988. Геологические критерии оценки перспектив нефтегазоносности акваторий (на примере Каспийских шельфов Азербайджана и Туркмении*). ВНИИЭгазпром*, Москва, 5, 490.

САЛАЕВ, Н.С. 2001. История геологического развития Северо-Абшеронской акватории Каспия в связи с перспективами нефтегазоносности рифогенных образований. *Известия АН Азербайджана.Науки о Земле,* 1, 14-20,

ХАИН, В.Е. 1950. Геотектоническое развитие Юго-Восточного Кавказа. Азнефтиздат. Баку. 224.

ХАЛИЛОВ, Н.Ю., КЕРИМОВ, А.А., ХЫДЫРОВА, Р.А. 2000. Оценка перспектив нефтегазоносности структур юго-восточной части Шимали Абшеронской зоны поднятий в свете новых данных. *Азербайджанское нефтяное хозяство,* 3, 1-7.

Məqaləyə g.-m.e.d. A.N.Hacıyev rəy vermişdir

РАЗРАБОТКА МЕСТОРОЖДЕНИЙ НЕФТИ И ГАЗА

© Р.Ю.Алияров и др., 2007

ОЦЕНКА КОЛЛЕКТОРСКОГО ПОТЕНЦИАЛА ПАЛЕОГЕН-МИОЦЕНОВЫХ ОТЛОЖЕНИЙ (на примере месторождения Сиазаньская моноклиналь)

Р.Ю.Алияров, Ю.М.Кондрушкин, Л.Г.Крутых, Ш.М.Ибрагимова, А.А.Адигезалова, Е.А.Кашкай, И.С.Рахманова

Институт геологии НАН Азербайджана
AZ1143, Баку, просп. Г.Джавида,29A

На примере Сиазаньской моноклинали изучены фильтрационно-емкостные свойства палеоген-миоценовых отложений. С применением статистических методов установлены кондиционные и средние значения пористости и проницаемости коллекторов. Полученные результаты позволили сделать вывод о большой перспективности этих отложений с точки зрения их нефтегазонасыщения.

Одним из старейших нефтегазоносных районов мира является Азербайджан. В сводном разрезе отложений, развитых в Азербайджане, нефтегазоносные свиты установлены в широком стратиграфическом диапазоне – от ааленского яруса средней юры до абшеронского яруса верхнего плиоцена. При этом основной нефтегазоносной свитой является продуктивная толща (ПТ), соответствующая по возрасту среднему плиоцену.

Вместе с тем на территории Азербайджана открыты нефтегазовые залежи в палеоген-миоценовых и меловых отложениях. Длительное время находятся в разработке залежи Прикаспийско-Губинского района (Сиазаньская моноклиналь), Абшеронского полуострова (Гарадаг, Шубаны, Бинагады), Гянджинского (Нафталан, Казанбулаг, Аджидаре, Тертер), Евлах-Агджабединского районов (Мурадханлы, Зардоб, Джафарлы), междуречья Куры и Габырры (Тарсдалляр, Гюрзундаг). Выявленные здесь залежи имеют сложное строение природных резервуаров и характеризуются в основном неантиклинальным типом ловушек.

Поскольку палеоген-миоценовые отложения представляют собой важнейший объект поисково-разведочных работ, в задачу наших исследований входило изучение коллекторских свойств пород этого комплекса в пределах Прикаспийско-Губинского нефтегазоносного района. В разрезе палеоген-миоцена этого района промышленная нефтегазоносность установлена в терригенных отложениях сумгайытской, коунской, майкопской свит, чокракского горизонта и сарматского яруса.

В плиоценовых отложениях хорошо выраженных признаков нефтегазоносности на территории района не обнаружено.

В настоящее время в пределах Прикаспийско-Губинского нефтегазоносного района осуществляется разработка нефтяных залежей Сиазаньской моноклинали – на площадях Чандагар-Зорат, Сиазань-Нардаран, Саадан, Амирханлы, Заглы и Зейва.

В геологическом строении месторождения Сиазаньская моноклиналь принимают участие верхнемеловые (от сантонского до датского яруса), палеоген-миоценовые и частично плиоценовые отложения.

Плиоценовые отложения выражены водоносными и плотными породами, которые с точки зрения нефтегазонасыщения не представляют интереса.

Миоценовые отложения представлены сарматским ярусом, диатомовой свитой (конк-

ским, караганским, чокракским горизонтами) и верхним майкопом.

Сарматский ярус (верхний миоцен) обнажается довольно широкой полосой вдоль Сиазаньской моноклинали и представлен в основном алевролитами, чередующимися с тонкими прослоями песков, песчаников и глин. Толщина яруса в среднем составляет 215 м.

Конкский горизонт (средний миоцен) в верхней части разреза представлен преимущественно алевролитами с тонкими прослоями песчаников, в нижней части преобладают глины. Толщина горизонта составляет 112 м.

Караганский горизонт (средний миоцен) в верхней и нижней частях разреза сложен в основном глинами с редкими прослоями песков и песчаников, а в средней части преобладают алевролиты. Толщина горизонта – 345 м.

Чокрак-спириалисовый горизонт (средний миоцен) в верхней части разреза представлен алевролитами, песчаниками, глинами и редкими прослоями песков. В средней и нижней частях преобладают алевролиты и глины. Толщина горизонта – 450 м.

Верхний майкоп (нижний миоцен) представлен в основном алевролитами. Толщина составляет 325 м.

Нижний майкоп (олигоцен) литологически представлен глинами, песками, песчаниками и конгломератами. Глины и пески карбонатные.

Вскрытая толщина майкопской свиты колеблется от нескольких метров до 1250 м; видимая толщина по сводному разрезу составляет 862 м.

Коунская свита (эоцен) прослеживается по всей Сиазаньской моноклинали и литологически представлена чередованием песчанистых, нередко сильно карбонатных глин, карбонатных песчаников и трещиноватых мергелей. Толщина свиты составляет на площадях Заглы -290 м, Чандагар-Зорат – 215 м.

Сумгайытская свита (палеоцен) прослеживается по всей Сиазаньской моноклинали и на площади Чандагар-Зорат трансгрессивно залегает на меловые отложения, а на площадях Сиазань-Нардаран, Саадан, Амирханлы, Заглы и Зейва перекрываются этими же отложениями.

В тектоническом отношении Сиазаньская моноклиналь приурочена к сложнопостроенному северо-восточному крылу Тенгинского антиклинория, протягивающегося вдоль северо-восточных предгорий Кавказа. Характерными особенностями тектоники являются крутое залегание, местами резко выраженное опрокидывание меловых и третичных отложений в зоне их контакта, постепенное выполаживание пластов на северо-восток, в сторону регионального падения третичных отложений, осложненность крупным продольным и сравнительно мелкими поперечными разрывами, которыми образовано 23 блока, отличающихся друг от друга по характеру нефтенасыщения.

На основе детального изучения геолого-географических особенностей моноклинали ее расчленяют на несколько площадей, различающихся интенсивностью дизъюктивных дислокаций: Чандагар-Зоратская (блоки I-III), Сиазань-Нардаранская (IV блок), Сааданская (блоки IV, V, VI), Амирханлинская (блоки VII,VIII), Заглинская (блоки IX-XV), Зейвинская и Тенгинская (блоки XVI-XXIII).

Промышленная разработка Сиазаньской моноклинали началась в 1941 году на площадях Сиазань-Нардаран, Саадан, Чандагар-Зорат; в последующем были введены в эксплуатацию площади Амирханлы (1954 г.), Заглы (1958 г.) и Зейва (1962 г.).

По всем залежам режим разработки – смешанный с преобладанием режима растворенного газа.

Как указывалось выше, объектом наших исследований является изучение коллекторских свойств пород палеоген-миоценовых отложений. Керновый материал изучен по 735 образцам из 130 скважин, отобранных из структурно-поисковых, глубоких разведочных и эксплуатационных скважин. Значительная часть образцов пород была отобрана боковым грунтоносом, что ограничило определение ряда параметров. По исследованным образцам пород произведено 1393 определения параметров коллекторских свойств и трещиноватости (исследования выполнены в лабораториях АзНИПИ нефти).

Для установления и обоснования кондиционных и средних значений параметров

были изучены распределения коллекторских свойств, а также зависимости между ними. Статистическая обработка данных коллекторских свойств выполнялась как по продуктивным горизонтам, так и отдельно по площадям. Были определены такие числовые характеристики распределений, как среднее значение параметра, размах, среднеквадратическое отклонение и коэффициенты вариации основных фильтрационно-емкостных параметров коллекторских свойств (пористость, проницаемость).

Пористость продуктивных горизонтов (табл. 1а, рис. 1а) изменяется от 1,2 до 30,8% (майкопская свита). Наибольшее количество определений пористости выполнено по отложениям майкопской свиты (428), а наименьшее – по чокракскому горизонту (15). Максимальное значение средней пористости (16%) отмечается в майкопской свите, минимальное (11,2%) – в сарматском ярусе. Среднеквадратическое отклонение варьирует от 4,7 (сарматский ярус) до 7,3 (чокракский ярус), а среднеквадратическое отклонение среднего, или ошибка репрезентативности, колеблется от 0,3 (майкопская свита) до 1,9 (чокракский горизонт). Коэффициенты вариации изменяются от 0,60 (чокракский горизонт) до 0,41 (майкопская свита).

Кривые распределения пористости выполнены также по площадям Сиазаньской моноклинали (табл. 1б, рис. 1б). Как видно из представленных материалов, максимальное значение пористости (33%) отмечается на площади Зейва, а минимальное (1,2%) – на площади Амирханлы. Наибольшее количество определений выполнено на площади Амирханлы (285), наименьшее количество – на площади Сиазань-Нардаран (19). И, как следствие этого, наименьшая ошибка репрезентативности (0,42) отмечается на площади Амирханлы, наибольшая (1,0) – на площади Сиазань-Нардаран. Среднее значение пористости изменяется от 11,2% на площади Заглы до 23,8% на площади Сиазань-Нардаран. Коэффициенты вариации колеблются от 0,18 на площади Сиазань-Нардаран до 0,60 на площади Заглы.

В целом по Сиазаньской моноклинали среднее значение пористости составило 14,7% при ошибке репрезентативности 0,26 и коэффициенте вариации 0,46.

Проницаемость пород Сиазаньской моноклинали изменяется от 0,01 до $430 \cdot 10^{-15}$ м^2. Как на кривых распределения, так и на графиках зависимостей проницаемость представлена в логарифмическом масштабе (табл. 2, рис. 2).

Как видно из рис. 2а, левая часть распределения находится в пределах lg $К_{пр}$ -2,1 – 0 и, по всей вероятности, характеризует группу неколлекторов. Правая часть распределения охватывает интервал lg $К_{пр}$ 0-3,0 и характеризует группу коллекторов. Таким образом, намечаемый по рядам распределения нижний предел логарифма проницаемости составляет 0,0 или $1,0 \cdot 10^{-15}$ м^2.

Построенные кривые распределения проницаемости и вычисленные числовые характеристики этих распределений выполнены так же, как и другие параметры, отдельно по продуктивным горизонтам (табл.2 б, рис.2 б) и по площадям (табл. 2 а, рис. 2 а).

Определение проницаемости выполнено по майкопской, коунской и сумгайытской свитам (160 анализов), по чокракскому горизонту – всего 2 определения, а по сарматскому ярусу определение проницаемости не выполнялось. Наибольшее количество определений выполнено по майкопской свите (96), наименьшее (23) – по коунской свите. Среднее значение проницаемости изменяется от $26 \cdot 10^{-15}$м^2 (сумгайытская свита), до $41 \cdot 10^{-15}$м^2 (майкопская свита), ошибка репрезентативности колеблется в пределах 7,6-13,0. Поскольку проницаемость является наиболее изменчивым параметром, отмечаются высокие коэффициенты вариации.

По площадям Сиазаньской моноклинали наименьшее значение средней проницаемости ($18 \cdot 10^{-15}$м^2) отмечается на площадях Зейва и Саадан, наибольшее значение ($63 \cdot 10^{-15}$м^2) – на площади Амирханлы. Ошибка репрезентативности колеблется от 4,9 (пл. Саадан) до 25,7 (пл. Заглы); коэффициенты вариации довольно высокие.

В целом по Сиазаньской моноклинали средняя проницаемость составила $35 \cdot 10^{-15}$м^2, среднеквадратическое отклонение – 72,6, ошибка репрезентативности – 5,7, коэффициент вариации – 206%.




Рис. 1. Сиазаньская моноклиналь. Дифференциальные кривые распределения пористости по объектам разреза (а), по площадям и в целом по моноклинали (б)




Рис. 2. Сиазаньская моноклиналь. Дифференциальные кривые распределения проницаемости по площадям и в целом по моноклинали (а), по объектам разреза (б)

Таблица 3

Числовые характеристики корреляционных связей

Продуктивные горизонты	Количество определений, n	Дисперсия , σ_x	Корреляционное отношение, η
Майкопская свита	85	5,07	0,84
Коунская свита	23	3,62	0,71
Сумгайытская свита	42	5,07	0,84
Сиазаньская моноклиналь	150	4,52	0,73




Рис. 3. Сиазаньская моноклиналь. Корреляционная зависимость между пористостью и проницаемостью по майкопской (a), коунской (b), сумгайытской (c) свитам и в целом по моноклинали (d)

Для установления связи между коллекторскими свойствами пород были составлены корреляционные таблицы и вычислены коэффициенты корреляции и корреляционные отношения для зависимости пористость-проницаемость.

Корреляционная связь между пористостью и проницаемостью была выполнена раздельно по продуктивным горизонтам (майкоп, коун, сумгайыт) и в целом по Сиазаньской моноклинали (рис.3). Поскольку связи эти оказались криволинейными, были вычислены корреляционные отношения. В таблице 3 представлены результаты расчетов.

Используя полученную зависимость, были установлены кондиционные значения. Так, граничное значение пористости составило 9% при проницаемости $1 \cdot 10^{-15} м^2$. Получив кондиционные значения фильтрационно-емкостных свойств, было выполнено разделение пород на коллекторы и неколлекторы в целом по Сиазаньской моноклинали. Из общего количества определений пористости (678 определений) при среднем значении 14,8%, количество коллекторов составило 414 определений при среднем значении пористости коллекторов 18,5%; из общего количества определений проницаемости (162 определения) при среднем значении $35 \cdot 10^{-15} м^2$ количество коллекторов составило 143 определения, а среднее значение проницаемости – $42 \cdot 10^{-15} м^2$.

Проведенная работа по изучению емкостных свойств палеоген-миоценовых отложений позволяет сделать вывод о большой перспективности этих отложений с точки зрения их нефтегазонасыщения.

Рецензент: д.г.-м.н. А.А.Фейзуллаев

© T.Y.Baharov, H.L.Əliyeva, F.A.Talıbov, 2007

NEFT YATAQLARINDA CƏM HASİLAT XƏRİTƏSİNİN YENİ MODİFİKASİYASI VƏ EHTİYATLARIN DƏQİQLƏŞDİRİLMƏSİ

T.Y.Baharov[1], H.L.Əliyeva[1], F.A.Talıbov[2]

1 - *AzNQSDETLİ*
AZ1033, Bakı, Ağa Nemətulla küçəsi, 39
2 - *ADNA*
AZ1010, Bakı, Azadlıq prospekti, 20

Son 7-8 ildə ətraf mühitin 1990-cı ilə nisbətən pisləşməsi ona dəlalət edir ki, 90-cı illərin əvvəllərində təbiətin mühafizəsi mühüm dövlət məsələsi olduğu üçün ona daha çox diqqət verilirdi və qanunlara uyğun xüsusi dövlət nəzarəti aparılırdı.

Ötən illərdə şəhərlər və kəndlər qaz və elektrik enerjisi ilə tam təmin olunmadığından meşələr sürətlə qırılırdı. Əvvəllər ağac emalı sənayesinin ağaca olan tələbatını Rusiya ödədiyindən meşələrə çox ciddi ziyan dəymirdi.

Başqa sözlə, dövlətin 1990-cı ilə qədər ətraf mühitə olan qayğısı əhalinin bir hissəsinin təbiətə qəddarcasına münasibəti ilə əvəz olundu. Lakin biz ümid edirik ki, ətraf mühitə münasibət yaxşılığa doğru dəyişəcək və onun sağlamlaşması məqsədi ilə bir sıra tədbirlər həyata keçiriləcəkdir. Sözsüz ki, «ekoloji cəhətdən tarazlaşdırılmış inkişafın» strategiyasının hazırlanması iqtisadi və ekoloji böhranın qarşısını alacaqdır.

3. «Müvazinətli inkişafın indikatorları» anlayışı

Bu anlayış bir sıra amillərin əhəmiyyətindən asılıdır. Bir tərəfdən, «müvazinətli inkişafın inditkatorları» ümumiləşmiş məna kəsb edir, digər tərəfdən, onlar mühüm komponentlərə görə diferensiasiyaya məruz qalırlar. Müvazinətli inkişafın əsas indikatorlarına əhalinin sağlamlığı, iqtisadi, ekoloji, demoqrafik və bir sıra başqa göstəricilər aiddir.

«Müvazinətli inkişafın əsas indikatorları» kimi, ilk növbədə, əhalinin sağlamlığını təmin edən problemləri həll etmək lazımdır. Başqa sözlə, əhalinin sağlamlığına ziyan vuran amillərə qarşı mübarizə tədbirlərinin işlənilməsini əhatə edən tibbi-coğrafi tədqiqatların mühüm elmi əhəmiyyəti qeyd edilməlidir.

Məlumdur ki, Azərbaycanın bir sıra rayonlarında ağcaqanadlar maleriyanın, ifrat rütubət revmatizm və traxoma xəstəliklərinin, suyun çirklənməsi mədə-bağırsaq xəstəliklərinin geniş yayılmasına səbəb olur. Böyük Qafqazın

cənub yamacındakı sularda ftor elementinin çatışmaması dişlərin korlanmasına, yodun azlığı isə zob xəstəliklərinin geniş yayılmasına şərait yaradır. Bu xəstəliklərin qarşısını almaq üçün ciddi tibbi profilaktiki tədbirlərlə yanaşı, bataqlıqların qurudulması, içməli suyun təmizlənməsi və onun tərkibinə çatışmayan maddələrin (ftor, yod və s.) əlavə edilməsi, gəmiricilərin və ağcaqanadların məhv edilməsi lazımdır.

Deməli, hər hansı bir ölkədə «ekoloji tarazlaşdırılmış inkişafı təmin etmək üçün əhalinin sağlamlığına aid kompleks tibbi-coğrafi problemlərin həlli lazımdır.

Göründüyü kimi, «ekoloji tarazlaşdırılmış inkişafın indikatorları» dedikdə ümumiləşdirilmiş aparıcı amilləri nəzərdə tutmaq lazımdır. Nəzərə almaq lazımdır ki, əsas indikatoru «xırdalamaqla» bu indikatorun ümumi inkişafının əsas istiqamətinin tədqiqindən uzaqlaşmış olarıq. Buna görə də biz Ukrayna və Belarusiya alimlərinin irəli sürdükləri kiçikdərəcəli indikatorların siyahısı ilə tam razı deyilik. Lakin onların irimiqyaslı elmi tədqiqatlar əsasında tərtib etdikləri «müvazinətli inkişafın indikatorları» cədvəlindən əlavə material kimi istifadə etmək olar.

Fikrimizcə, Azərbaycan Respublikası əraziisində səhralaşma problemini tədqiq edərkən, ilk növbədə, onu yaradan arid iqlimi öyrənmək lazımdır. İnsan amili isə, bir indikator kimi, bu indikatorlara əlavə edilməlidir. Ekoloji fəlakətin səbəbi olan bu iki amil səhralaşma prosesinin intensivliyində əsas rol oynayır.

Tundra təbii zonası daxilində insan tərəfindən pozulmuş təbii landşaftların yerində əmələ gəlmiş torpaq-bitki örtüyündən məhrum, çılpaqlaşmış əraziləri səhralaşma kimi qəbul etmək olmaz. Çünki burada təbii komplekslərin məhsuldarlığını itirməsinin səbəbi soyuq tundura iqlimi şəraitində insanların təbiətə qarşı qəddar və dağıdıcı münasibətinin nəticəsidir. Başqa sözlə, səhralaşma insanların hər növ təsərrüfatsiz fəaliyyəti nəticəsində baş vermir. Səhralaşma səhra, yarımsəhra və quru çöllərin arid iqlimi üçün səciyyəvidir.

4. Ətraf mühitin vəziyyətinin göstəriciləri mürəkkəb və çoxsayli olduqlarından biz onları iki nöqteyi-nəzərdən təhlil edirik

Birinci halda ətraf mühitin təbii quruluşunun ümumi vəziyyəti müəyyən olunur. Məsələn, yarımsəhra və quruçöl iqlimi hakim olan Azərbaycan Respublikasında şoranlıqlar yaranır, çöl (bozqır) otları, çayların yatağı boyu tuqay meşələri inkişaf edir. Onların fonunda şumlanmış torpaqlar şoranlaşır, çaylar boyu meşələr qırılır və qrunt sularının səviyyəsinin aşağı düşməsi müşahidə edilir.

İkinci halda isə təbii mühitin ayrı-ayrı komponentlərinin dəyişilməsi müşahidə olunur. Məsələn, hidrogeoloji tədqiqatlar əsasında aşkar olunmuşdur ki, ovalıqda qrunt sularının səviyyəsi səthdən 2-3 metr dərinlikdə yerləşir. Başqa bir misal: Kür çayı boyu tuqay meşələri qırıldığından onların toxunulmamış sahələri (keçmiş meşələrin 10%-ni təşkil edən 20 ha sahə) qalıq meşə talalarını xatırladır, ya da Kür-Araz düzənliyində suvarmaya yararlı torpaqların 53,2%-i şumlanmışdır. Suvarma qaydalarına əməl etmədikdə bu torpaqların 40%-i müxtəlif dərəcədə (1-3%) şorlaşmaya məruz qalır və səthi eroziya əmələ gəlir.

Ətraf mühitin vəziyyətinin göstəricilərindən biri eroziya şəbəkəsinin sıxlıq dərəcəsinin və onun inkişaf mərhələsinin aşkar edilməsidir. Ətraf mühitin təbii vəziyyətini pozan proseslərin əmələ gəlmə səbəblərini aşkar etmək onlara qarşı səmərəli mübarizə tədbirlərinin işlənməsinə imkan verir. Məsələn, savanna landşaftlarında əkinçiliyi inkişaf etdirmək məqsədilə ərazini sıx ot örtüyündən, kollardan və seyrək ağac bitkilərindən təmizləyirlər. Mülayim iqlim qurşağındakı dağ meşələrinin qırılması nəticəsində torpaq qısa bir müddətdə eroziyaya məruz qalır, kiçik çay hövzələrində meşələrin qırılması ətraf mühitin vəziyyətini pisləşdirir.

Savannada bitkilərin yandırılması, torpaqların şumlanması ekoloji tarazlığın pozulmasına və təbii landşaftların deqredasiyasına şərait yaradır.

Bu və digər ərazilərdə ətraf mühitin vəziyyətini xarakterizə edən göstəricilər məkandan və zamandan asılı olaraq dəyişə bilər. İlkin mərhələdə dağ yamaclarında qırılmış meşələrin yerində leysan yağışlar zamanı sel axınlarını yaradan intensiv erozion və denudasion proseslər fəallaşır. Dağ yamaclarında erozion və denudasion proseslər intensivləşdikcə sürüşmə sahələrinin əmələ gəlməsinə zəmin yaranır.

Azərbaycan Respublikasının ayrı-ayrı ərazilərində sürüşmələrin öyrənilməsi XX əsrdə başlanmışdır. 1950-ci ilə qədər müxtəlif ərazilərdə baş verən sürüşmələr yaşayış məntəqələrinə vurduqları ziyanla əlaqədar öyrənilirdi. An-

caq 1950-ci ildə geomorfoloqlar Azərbaycan ərazisini geomorfoloji xəritələşdirməyə başladıqda sürüşmələr mütəmadi olaraq tədqiq edilirdi (B.Ə.Budaqov 1957, 1958).

Azərbaycan Respublikasında sürüşmələrə ən çox məruz qalan əraziləri məhz 1965-ci ildə bir sıra geomorfoloqlar (Dumitraşko, Antonov, Budaqov, Lilienberq, Abbasov, Museyibov, Şirinov) tərəfindən Azərbaycanın geomorfoloji xəritəsi (1: 200 000 miqyasda) tərtib edildikdən sonra aşkar olundu.

Bizim 1960-1966-cı illərdə Azərbaycanda sürüşmələrə dair apardığımız tədqiqatlar əsasında onların tədqiqat tarixini, təsnifatını, genetik tiplərə bölünməsini və intensivlik dərəcəsinə görə rayonlaşmasını vermək mümkün oldu. Biz sürüşmələri aşağıdakı tiplərə bölmüşük: hərəkətdə olan sürüşmələr, fırlanan surüşmələr, blokvari sürüşmələr, delyapsiv tipli sürüşmələr - sürüşməli axın, geniş yayılmış palçıq axını, mürəkkəb və keçid tipli sürüşmələri (mürəkkəb sürüşmə axını, sürüşmə-uçqun).

Azərbaycan ərazisində müxtəlif formalı sürüşmələr geniş ərazini əhatə edir. Onlara qarşı mübarizə tədbirləri hazırlamaq üçün hər bir sürüşmə tipi hərtərəfli öyrənilməli və mümkün olduqda sürüşməli ərazilərdə stasionar müşahidələr və ya monitorinqlər aparılmalıdır. Sürüşmələr əsasən Azərbaycanın dağlıq ərazilərində baş verir. Sürüşmələrin və uçqunların formalaşmasına dik yamaclar, aşınmış gillicəli, qumdaşlı, əhəngdaşlı yamac suxurları, atmosfer yağıntılarının bolluğu, müasir fəal tektonik hərəkətlər, əlverişli hidrometeoroloji şərait təsir edir. Sürüşmələr yamacların torpağını, çəmən və meşələrini dağıdır, yamac çöküntülərini dərənin dibinə doğru sürüşdürür. Onlar yaşayış məntəqələrinə və təsərrüfatın müxtəlif sahələrinə xeyli ziyan vurur.

Sürüşmələr Zərnil (Şahbuz r-nu), Nuran (Ağsu r-nu), Suvagil (Zaqatala r-nu), Yuxarı Fındıqan (Xızı r-nu), Laza (Qusar r-nu) və başqa yerlərdə daha intensiv inkişaf etmişdir. Lakin Azərbaycan ərazisində sürüşmələrin geniş yayılmasına baxmayaraq, onların üzərində stasionar müşahidələr aparılmır. Sürüşmələrin qarşısını almaq və ya onların hərəkətini qabaqcadan izləmək istiqamətində son vaxtlar, az da olsa, elmi-tədqiqat işləri aparılır. Bəzən dağlıq ərazilərdə yeni qaz və su kəmərləri, yollar çəkən zaman da sürüşmələrin vaxtaşırı canlanması, intensivliyi nəzərə alınmır. B.Ə. Budaqovun 1:500000 miqyasda tərtib etdiyi xəritədə (1982, 1983) Azərbaycanda sürüşmələrin yayılmasına və intensivliyinə görə rayonlaşması verilib. Xəritədə hər bir ayrılmış tipə xas olan litoloji xüsusiyyətləri, relyefin yarusluğu, seysmiklik dərəcəsi, atmosfer yağıntılarının optimal miqdarı verilmişdir.

Deməli, ətraf mühitin vəziyyətinin göstəricisini müəyyən etmək üçün təbiətə ziyan vuran prosesləri və onların gərginlik dərəcəsini aşkar edən sahəni müəyyən etmək lazımdır.

Ekoloji vəziyyətin göstəricilərini ərazidə mövcud olan faktiki materiallar əsasında aşkar etmək zəruridir. Muqayisəli təhlilləri asanlaşdırmaq üçün faktiki materialların ilkin mənbəyini göstərmək lazımdır. Belə ki, ətraf mühitin vəziyyətinin göstəricilərini müəyyən məkanda və zamanda əldə edirik, sonra proseslərin əmələ gəlməsinə səbəb olan təbii və antropogen amillərin qarşılıqlı əlaqəsini, bu amillərin inkişaf dərəcəsini göstərən meyarları müəyyən edirik. Bu, göstərilən neqativ amillərə qarşı mubarizə tədbirlərinin işlənməsinə imkan yaradır. Azərbaycanın sürüşməli rayonlarını daha dərindən və hərtərəfli öyrənmək üçün stasionar və yarımstasionar müşahidələr aparmaq məqsədəuyğun olardı. Yüksəkixtisaslı elmi kadrların hazırlanması və sürüşmələri öyrənən təşkilatların qarşılıqlı əlaqəsi vacibdir. Alp geosinklinalına daxil olan Azərbaycan ərazisi mürəkkəb, təzadlı relyeflı və iqlim tipləri ilə səciyyələnir - zəngin landşaft komponentləri ilə yanaşı, burada təbiətin ekstremal hadisələrinin inkişaf etdiyi ərazilər də mövcuddur.

Azərbaycan ərazisində geoloji-geofiziki, hidrometeoroloji və başqa tipli proseslərin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri nəticəsində ekstremal şəraitdə keçən dağıdıcı hadisələr əmələ gəlir.

Azərbaycan ərazisində əhalinin məkan və zamana uyğun yerləşməsi iqtisadi və sosial inkişafdan asılı olaraq dəyişir. Tarix boyu əhalinin ən sıx yerləşdiyi yerlər daha əlverişli coğrafi şəraiti olan dağ və düzən ərazilərin qovşağındakı sahələr olub. Bu sahələr suyun bolluğu ilə, münbit torplaqlarla, zəngin flora və sağlam iqlimlə fərqlənmişdir. Bu ərazilərdə vaxtaşırı zəlzələlər, sellər, dolu və bir çox başqa təbiətin dağıdıcı hadisələri baş verirdi.

Suvarılma əkinçiliyi ərazisi genişləndikcə əhalinin məskunlaşması düzən ərazilərə doğru genişlənməyə başladı.

Sənayenin inkişafı Azərbaycan şəhərlərinin inkişafına təkan verdi. 1992-ci ilin məlumatlarına əsasən, respublika əhalisinin 52%-i şəhərlərdə, 48%-i isə kəndlərdə yaşayır.


Sənayenin və kənd təsərrüfatının intensiv inkişafı və ətraf mühitin mühafizəsinə az diqqət verilməsi (suyun çirklənməsi, pestisidlər, sənaye tullantıları, neft məhsulları və s.) ekosistemlərin çirklənməsini kəskinləşdirir.

Təbiətin dağıdıcı hadisələri və antropogen amillərin neqativ nəticələri respublika ərazisində eyni formada yayılmamışdır.

Əgər Abşeronda baş verən antropogen amillər ekstremal şəraiti yaradırsa, Dağlıq Şirvanda ekstremal şəraitə təbii amil – zəlzələ, sel və dolu səbəb olur. Bəzi ərazilərdə isə ekstremal şəraiti yaradan təbii və antropogen amillərin intensivlik dərəcələri eyni deyildir. Belə ki, Azərbaycanın Böyük Qafqaz hissəsinin cənub yamacında ekstremal şəraitə zəlzələlər, sellər, sürüşmələr, eroziya, dolu düşməsi səbəb olur. Burada antropogen amillər isə təbii amillərin fəaliyyətini sürətləndirir. Lakin digər ərazilərdə ekstremal şəraiti arid iqlim, onun neqativ nəticəsi və təsərrüfatın qeyri-normal (torpaqların intensiv şorlaşması, pestisidlərdən ifrat istifadə və s.) aparılması səbəb olur.

Biz Azərbaycan Respublikasının ərazisində ekoloji gərginlikdən asılı olaraq ilk dəfə ekoloji-coğrafi rayonlaşma bölgüsü aparmışıq (1990). Ekocoğrafi rayonlaşmanın əsasını insan amili, insanın maraqları, onun sağlamlığı, məşğul olduğu təsərrüfat, mənəvi və maddi dəyərlərin təhlükəsizliyi təşkil edir.

Ekoloji-coğrafi rayonların ayrılmasında əsas landşaft tipi, ərazinin seyismikliyi (balla), sel və sürüşmələrə məruz qalması, əsas ekstremal iqlim göstəriciləri, illik axın, havanın çirklənmə dərəcəsi, torpağın şorlaşması və bir sıra başqa təbii və antropogen göstəricilər nəzərə alınmışdır.



«Azərbaycan ərazisinin ekoloji-coğrafi rayonlaşması» xəritəsinin legendası

Ekoloji cəhətdən çox gərgin rayonlar

Quru

I.Abşeron rayonu

Yarımsəhra landşaftı, XII-ballıq şkalaya əsasən, seysmiklik VII bala qədər (Maştağa, Nardaran və Bilgəh kəndləri); abraziya prosesləri; xəzri (nord) küləkləri zonası (15 m/san); mütləq maksimum temperatur 43^0 C, ağ yelli günlərin sayı -30 gün; il ərzində buxarlanma çatışmazlığı 900-1000 mm; il ərzində nisbi rütubətlənmə 20 %; illik minimal axım – 0; yüksək dərəcədə çirklənmiş hava; yüksək minerallaşmış, neft məhsulları və məişət tullantıları ilə intensiv çirklənmiş göllər; neft məhsulları və sənaye tullantıları ilə yüksək dərəcədə çirklənmiş torpaq örtüyü; qrunt suları səviyyəsinin yüksəkliyi; bataqlaşmış və şorlaşmış torpaqlar; neft mədənlərində, neft anbarlarında və kimya zavodlarında qəza və yanğın ehtimalı.

II.Aran rayonu

Yarımsəhra landşaftı; seysmiklik VII bala qədər; torpaqların yüksək, həm də təkrar şorlaşması; havanın mütləq maksimal temperaturu – 43^0 C; ağ yelli günlər 50; il ərzində buxarlanma çatışmazlığı – 900 mm; nisbi rütubətlənmə 20%; il ərzində buxarlanma 1200 mm; illik minimal axım – 0-0,5 l/sankm^2; müxtəlif epidemiyaların və malyariyanın olması; təhlükəli daşqınlar; torpaq və suyun pestisidlərlə, gübrələr, məişət tullantıları ilə intensiv çirklənmə; mədə-bağırsaq yolları xəstəliklərinin mümkünlüyü; kənd təsərrüfatında pestisidlərin, kimyəvi gübrələrin müəyyən edilmiş normadan (PDK) bir neçə dəfə artıq istifadəsi ilə bağlı mövcud xəstəliklərin olması; alçaqdağlıq meşələrin intensiv qırılması.

III. Şərur-Ordubab rayonu

Yarımsəhra landşaftı; seysmiklik VII bal; sel axınlarının söndüyü zona; havanın mütləq maksimal temperaturu -32^0 C; ilin isti yarısında ağ yelli günlər 70; il ərzində buxarlanma çatışmazlığı – 1000 mm; il ərzində nisbi rütubətlənmə 20%; illik minimal axım – 0,5 l/sankm^2; müxtəlif epidemiyaların mümkünlüyü; katostrofik daşqınlar; torpaqların yüksək dərəcədə şorlaşması və bataqlaşması.

IV.Dağlıq Şirvan rayonu

Dağ-meşə və dağ-çəmən landşaftları; seysmiklik – IX ball; yüksək fəallı sürüşmələr; deqradasiyaya uğramış torpaqlar; yay və qış otlaqlarının mümkün normadan bir neçə dəfə artıq dərəcədə sellilik.

Dəniz.

V.Bakı buxtası.

Şəhər təsərrüfatının, xüsusən kimya sənayesinin tullantıları ilə intensiv çirklənmiş dəniz suları; neft məhsulları ilə intensiv çirklənmiş dib çöküntüləri; üzən neft məhsulları və neft örtüyü; ekoloji qəza; dib çöküntülərində canlı orqanizmlərin yox olması dərəcəsinə endirilməsi.

VI. Sumqayıt «buxtası»

Məişətin və şəhər sənayesinin tullantılarla (maye, qatı) çirklənməsi; çirklənmiş dəniz suları; mədə-bağırsaq, dəri, allergiya xəstəliklərinin təzahürü; səth sularının, torpaq örtüyünün, atmosfer havanın yüksək çirklənməsi.

Ekoloji cəhətdən gərgin rayonlar

Quru

VII. Böyük Qafqazın cənub yamacı

Dağ-meşə, yüksəkdağlığın alp-subalp-çəmən-qayalıq landşaftı; seysmiklik VIII bala qədər; yüksək sellilik (ildə ən azı bir dəfə güclü keçən sellər); aktiv sürüşmələr; il ərzində 5 günədək dolunun düşməsi; fəal qravitasion-tektonik çatlar; yüksəkdağlıqda qar uçqunları; su mənbələrində ftor (kariyes) və yod (qalxanvari vəzin xəstəliyi) çatmazlığı; məhsuldarlığı azalmış dağ çəmənlikləri; deqradasiyaya uğramış, intensiv qırılmış, yuxarı sərhədi qırılaraq 100-200 m aşağı endirilmiş yüksəkdağ meşələri; intensiv antropogen fəaliyyəti nəticəsində antropogen eroziya və denudasiya; qravitasion-denudasion və erozion-denudasion proseslərin güclənməsi.

VIII. Qanıx-Əyriçay rayonu

Dağarası çökəkliklərin meşə-çəmən landşaftı; seysmiklik VIII bala qədər; məcrada, məcraətrafı subasarlarda sel çöküntülərinin intensiv çökməsi; sellərin təsərrüfata, əhaliyə və təbiətə maddi ziyan vurmasi; il ərzində orta hesabla iki gün dolu yağması və onun vurduğu ziyan.

IX. Xanlar rayonu

Dağ-meşə-çəmən landşaftı; seysmiklik VIII baladək; bəzi yerlərdə sürüşmələrin çox fəal olması; il ərzində 7 gün dolunun yağması; dağ-mədən qazıntıları tullantılarının çay dərələrində və dağ yamaclarında yığılması.

X. Naxçıvan rayonu.

Dağ-çəmən-çöl və qayalıq landşaftı; seysmiklik VIII, şərqdə və şimal-şərqdə isə IX baladək intensiv; erozion, aridenudasion proseslər; il ərzində yüksəkdağlıqda dolu yağan günlərin sayı 7, ortadağlıqda isə 5 gün; ilin isti yarısında ağ yelli günlərin sayı - 30 gündən (ortadağlıqda) 50 günə qədər (alçaqdağlıqda); il ərzində havanın mütləq minimal temperaturu – 28^0 C; çox az çay axımı olan zona (1l/sankm^2).

XI. Laçın rayonu

Dağ-meşə-çəmən landşaftı; seysmiklik VIII bal; fəal sürüşmələr; intensiv qırılmış dağ meşələri; deqredasiyaya uğramış yay otlaqları.

XII. Lerik rayonu

Dağ-çəmən-meşə və dağ-çöl landşaftı; seysmiklik VIII bal; orta dərəcədə və fəal sürüşmələr; il ərzində dolunun yağması 3 gün; il ərzində cənub-şərqdə ən çox atmosfer yağıntıları.

Dəniz.

XIII. Neft Daşları və Sərqi Muğan

Dəniz suları vaxtaşırı neft məhsulları ilə çirklənir; neft anbarlarında, neft kəmərində və neft mədənlərində katastrofik yanğınların mümkünlüyü.

Ekoloji cəhətdən qismən gərgin rayonlar

Quru

XIV. Şimal-Şərqi Azərbaycan

Dağ-çəmən-meşə landşaftı; seysmiklik VII bal; intensiv qravitasion-denudasion proseslər; yüksək dərəcədə fəal sürüşmələr; orta dərəcədə sellilik və daşqınlar; yüksəkdağlıqda qar uçqunlarının mümkünlüyü; fyon (isti dağ) küləkləri.

XV. Qobustan rayonu

Çöl və quruçöl landşaftı; seysmiklik VII bal; intensiv arid-denudaison proseslər; defisit yeraltı və səth suları; illik minimal axım 0-l/sankm^2; ağ yelli günlərin sayı 30 gündən (şimalda) 50 günədək (cənubda).

XVI. Xaçmaz rayonu

Alçaqdağ-çəmən-meşə quruçöl və qismən yarımsəhra landşaftı; seysmiklik VII bal; intensiv abraziya prosesləri; eol akkumulyasiyası; havanın maksimum temperaturu – 43^0 C; cənubda torpaqların şorlaşması; alçaqdağ meşələr intensiv olaraq qırılır.

XVII. Acınohur rayonu

Yarımsəhra quruçöl landşaftı; seysmilik VII bal; intensiv qobu-yarğan şəbəkəsi; dağarası çökəkliklərdə şorlaşmış torpaqlar; havanın mütləq maksimumu – 43^0 C; ağ yelli günlərin sayı – 30 gün; illik minimal axım 0-0,5 l/sankm^2.

XVIII. Gədəbəy rayonu

Dağ-meşə-çəmən və qayalıq landşaftı; seysmilik VIII bal; fəal qravitasion-denudasion proseslər (sürüşmələr); orta dərəcədə fəallığı olan sellər; il ərzində dolu yağan günlərin sayı yüksəkdağlıqda - 7 gün; alçaqdağlıqda isə - 5 gün.

XIX. Kəlbəcər rayonu

Dağ-meşə və dağ-çəmən landşaftları; seysmilik VII bal; yüksəkdağlıqda qar uçqunları; yüksəkdağlıqda temperaturun mütləq maksimumu 30^0 C; il ərzində dolu yağan günlərin sayı 7 gün; intensiv deqradasiyaya uğramış dağ çəmənləri.

XX. Lənkəran rayonu

Alçaqdağ-çəmən-meşə landşaftları; intensiv abrazion proseslər; il ərzində yüksək atmosfer yağıntıları (1600 mm və artıq); illik minimal axım 0-1 l/sankm^2.

XXI. Gəncə-Ağdam-Ağsu rayonu

Quruçöl və yarımsəhra landşaftı; seysmilik VII bal (cənub-qərbdə VIII ball); torpaqlar yüksək dərəcədə bataqlaşıb; havanın il ərzində mütləq maksimum temperaturu - 43^0 C; ilin isti yarısında ağ yelli günlərin sayı - 30 gün; illik minimal axım 0-1,5 l/sankm^2; fəal irriqasiya eroziyası.

Dəniz

XXII. Kür çayının mənsəbi

Çay və onların vasitəsi ilə dəniz suları vaxtaşırı pestisidlərlə, mineral gübrələrlə, digər kimyəvi maddələr və sənaye tullantıları ilə çirklənir.

Bundan əlavə, hər bir rayon daxilində ehtimal olunan təhlükəli hadisələr göstərilib. Məsələn, neft mədənlərində ehtimal oluna biləcək yanğınlar, su anbarlarında bəndlərin dağılma təhlükəsi və s.

Apardığımız rayonlaşmada ilk dəfə olaraq Azərbaycan ərazisinin sahil zonasına aid olan dəniz regionları da daxil edilmişdir. Faktiki materialların təhlili nəticəsində respublika ərazisində ekoloji gərginlik dərəcəsinə görə üç qrupda birləşdirilmiş 21 ekoloji-coğrafli rayon ayrılmışdır (legendaya bax). Xəritədə şərti işarələrlə ətraf mühiti çirkləndirən elementlər və relyefi parçalayan antropogen amillər verilmişdir.

Ərazinin ekoloji gərginlik dərəcəsi məkan və zamana uyğun dəyişə bilər. Məsələn, ekoloji gərginliyi yaradan antropogen amillərə qarşı tədbirlər nəticəsində ətraf mühitin çirklənmə dərəcəsini azaltmaq, ya da çirkləndirici amilləri tam ləğv etmək mümkün olar. Bəzi təbii proseslərin intensivlik dərəcəsini azaltmaq mümkündür (sel və sürüşmələrə qarşı tədbirlər). Perspektivdə ekoloji gərginliyi ləğv etmək məqsədilə ayrılmış ekoloji-coğrafi rayonlarda təbii və antropogen amilləri aşkar etmək üçün bir sıra kompleks elmi-tədqiqat işləri aparmaq zəruridir. Belə ki, təbiətin bütün dağıdıcı proseslərinin (zəlzələ, sel, sürüşmə, dolu, quraqlıq və s.) qarşısını almaq üçün onların proqnozunu işləmək; zəlzələlərin dağıdıcı təsirini azaltmaq üçün seysmodayanıqlı tikintilərin aparılmasını tövsiyə etmək; sellərin gücünü və təkrarlanmasını azaltmaq məqsədilə selli çayların hövzəsində meşəsalma və mühəndis-inşaat işləri aparmaq; ağ yel əsən quraq ərazilərdə vaxtilə mövcud olmuş meşə zolaqlarını bərpa etmək və yenilərini salmaq; sənaye və məişət tullantıları emal olunan yerlərdə tarlaqoruyucu meşə zolaqları salmaq ümdə məsələlərdəndir.

Bu aspektdə kompleks tədqiqatların aparılması və neqativ amillərlə məqsədyönlü mübarizə tədbirlərini işləmək üçün vahid plan və vahid iş metodikası lazımdır.

5. Qəbul edilmiş qərarların və qətnamələrin səmərəliliyi

Təbiətin mühafizəsinə dair qəbul edilmiş və həyata keçirilmiş qətnamələrin səmərəlilik əmsalını təyin etmək mühüm dövlət əhəmiyyəti kəsb edir.

Keçmiş İttifaqda ətraf mühitin mühafizəsində nailiyyətlərlə (qoruqların təşkili, par-

tiya və dövlət təşkilatları tərəfindən nəzarət, yaşıllıqların genişlənməsi və s.) yanaşı, bir sıra çatışmazlıqlar da mövcud idi.

Ətraf mühitin mühafizəsinə dair, xüsusən zavodların çirkab sularına, havaya atılan qazlara, kimyəvi elementlərlə çirklənməyə, təsərrüfat əhəmiyyətli meşələrin qırılmasına, torpaqların deqradasiyasına dair qəbul edilmiş qərarların işləməsi və həyata keçirilməsi aşağı səviyyədə idi. Keçmiş İttifaqın alim və mütəxəssisləri ətraf mühitin mühafizəsinə dair kapitalist ölkələrində təşkil olunan işləri tənqid edərək keçmiş SSRİ-də ətraf mühitin mühafizəsini tərifləyirdilər.

İttifaq dağıldıqdan sonra məlum oldu ki, bir çox Qərb ölkələrində ətraf mühitin mühafizəsi olduqca yüksək səviyyədədir. Keçmiş İttifaqda ətraf mühitin deqradasiyasına dair işlər ədəbi-publisistik sərlövhə altında - «Bizə və nəvələrə» (D.L. Armand) nəşr olunurdu, kapitalist ölkələrində isə təbii mühitin dağılmasına aid samballı əsərlər aktual və ciddi mövzulara həsr olunurdu («Aclığın coğrayfiyası» və s).

Keçmiş SSRİ-də ətraf mühitin mühafizəsində olan çatışmazlıqlar və tədbirlərin zəif həyata keçirilməsi MDB ölkələrində indi də mövcuddur.

Azərbaycanda müstəqillik əldə edildikdən sonra bir sıra qərarlar, məsələn, 3 mart 1991-ci ildə «Azərbaycan Respublikasının meşə kodeksi», havanın, torpağın və s. mühafiizəsinə dair mühüm qərarlar qəbul edilmişdir. Bu qərarların icrasına nəzarətin dövlət tərəfindən aparılması zəruridir.

MDB ölkələrində ətraf mühitin mühafizəsinə dair fəaliyyətin zəifləməsi obyekitiv səbəblərə əsaslanır.

Keçmiş SSRİ parçalandıqdan sonra MDB ölkələrində iqtisadi qurum dağılaraq sosial-iqtisadi böhran yaratdı.

Keçid dövründə yeni tipli dövlətlərə və yeni sosial-iqtisadi münasibətlərə rəhbərlik etməyə qadir olan lider lazım idi. Bu dövrdə əhalinin əksər hissəsi məcbur idi ki, öz həyati ehtiyaclarını təbii ehtiyatlardan maksimum intensiv, qeyri-normal dərəcədə istifadə edərək ödəsin. Elektrik enerjisi, daş kömr və qaz olmadığından meşələr qəddarcasına qırılır, heyvanlar və quşlar nəzarətsiz ovlanır və nəticədə təbiətə ciddi ziyan dəyirdi.

Meşəli ərazilərin əhalisi dağ yamaclarında torpaqqoruyucu ağacları, yol boyunca isə dekorativ ağacları qırırdı. Əksər hallarda yerli hökumət nümayəndələri brakonyerlərə qarşı laqeyid idilər.

Son zamanlar MDB ölkələrəində müəyyən iqtisadi yüksəliş oduğundan ətraf mühitin mühafizəsinə diqqət artırılmağa başlayıb. Perspektivdə əhalinin iqtisadi biliyini artırmaq, təbiətə və təbii ehtiyatlara qayğı ilə yanaşmağı aşılamaq lazımdır.

Fəaliyyətdə olan qanunvericilik ətraf mühitin mühafizəsində böyük əhəmiyyət kəsb edir. Ətraf mühitin mühafizəsində təsdiq olunan ictimai və dövlət təşkilatları öz funksiyalarını qanunun müvafiq maddəsini rəhbər tutaraq icra edirlər. Ətraf mühitin mühafizəsinə dair effektli tədbirlərin işlənməsi bu və ya digər təbii ehtiyatların mövcudluğundan asılıdır. Məsələn, bitki və heyvanat aləmində ən çox nadir növlər mühafizə edilmişdir. Bu məqsədlə MDB ölkələrinrdə, o cümlədən Azərbaycan Respublikasında Qırmızı kitab tərtib olunub (1989). Lakin Qırmızı kitaba daxil olan bitki və heyvanat aləminin növlərindən başqa, qoruq və yasaqlıqlarda fauna və flora mühafizə olunmuşdur.

Belə ki, Qızılağac qoruğunda Asiya və Afrikadan uçub gələn köçəri quşların qışlaması və onların mühafizəsi şərq yarımkürəsinin bir qrup quşlarının saxlanmasına və qorunmasına zəmin yaradır. Deməli, təbiətin mühafizəsinə dair işlənilən qanunlar nəinki lokal və ya regional, hətta qlobal əhəmiyyət kəsb edir. Buna görə də təbiətin mühafizəsinə dair qanunların effektli olması üçün onları təmin edən iqtisadi mexanizm məhsuliyyətlə işlənməlidir.

Hansı bir ölkədə təbiətin mühafizəsinə dair qanun işlənibsə, o ölkənin hakimiyyət orqanları tərfindən bu qanun maliyələşməlidir.

Məsələn, birincisi, Azərbaycan Respublikası ərazisində baş verən eroziyaya, sellərə, sürüşmələrə, torpağın şorlaşmasına və s. aid olan qərarlar dövlət tərəfindən maliyyələşməlidir. Ətraf mühitin hər bir komponentinin mühafizəsi onların yerləşdiyi ərazilərin hakim orqanları tərəfindən mühafizə edilməlidir.

İkincisi, regional miqyasda ətraf mühitin mühafizəsi müxtəlif ölkələrin qarşılıqlı marağını nəzərə alaraq maliyyələşdirilir. Məsələn, Dunay, Kür və Araz çaylarının, ya da Xəzər, Baltik və Aralıq dənizlərinin mühafizəsi bu hövzələrdə yerləşmiş ölkələrin suyun və havanın çirklənməsinə qarşı tədbirlərin maliyyələşməsi hesabına birlikdə aparılmalıdır.

Üçüncüsü, qlobal miqyasda iqlimə təsir edən ziyanlı komponentlərə qarşı mübarizə, azon qatının zədələnmiş sahələrinin bərpası, buzlaqların əriməyinə təsir edən iqlimin istiləşməsi və atmosferdə sənaye tozunun miqdarının artmasının qarşısını alan tədbirlər qlobal problemləri əhatə etdiyindən dünya ölkələri tərəfindən birlikdə maliyyələşdirilir.

Ətraf mühitin lokal, regional və qlobal miqyasda çirklənməsinə qarşı mübarizəyə dair bəzi problemlərin həlli əlaqədar ölkələr tərəfindən maliyyələşməlidir. Məsələn, Azərbaycanda Qızılağac qoruğu təbiətinin mühafizəsi qlobal əhəmiyyət kəsb etdiyindən digər olkələr də onun qorunmasının marağında olmalıdır. Bu baxımdan Qızılağac qoruğu tipində olan təbii obyektlərin qorunmasını effektli təşkil etmək üçün BMT-nin maliyyə yardımı lazımdır.

Təbii qoruqların problemləri bir çox başqa olkələrin maraq dairəsində olduğundan o, bir mərkəzdən maliyyələşməlidir. Ətraf mühitin mühafizəsinə dair bir çox tədbirlər beynəlxalq koordinasiya mərkəzində cəmləşir.

Əgər hər hansı bir ölkə nadir təbii obyektin, relikt və endemik flora və faunanın mühafizəsinə dair qərar qəbul edirsə, onun iqtisadi və elmi cəhətdən effektli olması üçün qabaqcadan müəyyən edilmiş beynəlxalq mərkəzdən müəyyən miqdarda maliyyə vəsaiti ayrılmalıdır. Bu mərkəzin maliyyə təşkilatı dünyanın bir çox donor dövlətlərinin maliyyəsi hesabına ödənilməsi məsləhətdir. Birmənalı demək olar ki, bu aspektdə qəbul edilən məqsədyönlü və effektli qərarlar ətraf mühitin mühafizəsi işində qalxan rolunu oynaya bilər.

6. Beynəlxalq əməkdaşlıq

Keçmiş SSRİ-də ayrı-ayrı respublirkalarda və ya da İttifaq miqyasında aparılan elmi-tədqiqat işləri bir mərkəzdən maliyyələşdirilirdi. Son illər müstəqil ölkələrdə elmi-tədqiqat və iqtisadi işlər yeni yaradılmış iqtisadi-siyasi qurum əsasında təşkil olunur. Hal-hazırda iqtisadi böhranla əlaqədar elmi işlərə mərkəzləşmiş halda çox az maliyyə vəsaiti ayrılır.

Yüksəkixtisaslı alimlər iqtisadi böhranın məngənəsindən çıxmaq üçün Qərb ölkələrinə gedir - «beyin axını» baş verir. MDB ölkələrində «beyin axını» çox vaxt xarici şirkətlərlə bağlanmış müqavilə əsasında həyata keçirilir. Qərbdə bizim alimlərin peşəkarlıq səviyyəsinin yüksək qiymətləndirilməsi Sovet elminin keyfiyyətinin yüksək olmasına həyati sübutdur.

Əlbəttə, ölkədə çalışan alimlərin sayı onu tərk edənlərin sayından qat-qat çoxdur. Maliyyə çatışmazlığına baxmayaraq, alimlərin bir çoxu öz ölkələrində elmi-tədqiqat işlərini davam etdirir.

Maddi bazanın məhdudluğundan çöl tədqiqatları aparılmır, kimya təmayüllü laboratoriyalarda reagentlərin olmadığından mühüm problemlər işlənilmir, elmin digər sahələrini yeni müasir avadanlıqla təchiz etmək mümkün deyil. Lakin təcrübəli alimlər elmi tədqiqatları davam etdirmək üçün, Qərb ölkələrində olduğu kimi, şəxsi müqavilələr bağlayır, müxtəlif tenderlər keçirir və s.kimi məqsədyönlü yollar araşdırırlar.

Azərbaycan alimlərinin bir hissəsi öz elmi tədqiqatlarını dövlət tərəfindən maliyyələşmə hesabına, digərləri isə birlikdə regional miqyasda elmi işlər aparırlar.

Keçmiş SSRİ-də vahid proqram üzrə yetişmiş MDB alimləri əməkdaşlıq edir və birlikdə elmi-tədqiqat işləri aparırlar.

Bir qrup Azərbaycan alimləri NATO xətti ilə müxtəlif sahələrdə elmi-tədqiqat işləri aparmaq niyyətindədirlər. Belə halda birlikdə tədqiqat aparan ölkələrin biri NATO-ya daxil olan ölkəni təmsil etməlidir. NATO-nun xətti ilə aparılan işlər bir neçə ölkənin marağına dair problemləri əhatə etməlidir. Məsələn, Qafqazın səth sularının keyfiyyətinin yaxşılaşması, dövlət sərhədlərində baş verən etnik və ekoloji münaqişələrin qarşısını alınması, müasir dövrdə Qafqazın təbiətinin mühafizəsi və s.

MDB alimlərinin «Ekoloji tarazlaşdırılmış inkişafa» dair iclasları beynəlxalq elmi istiqamətlərin birlikdə işlənməsinin genişlənməsinin mühüm olduğunu göstərir.

Son illər beynəlxalq miqyasda aparılan işlərin nəticələri sübut edir ki, MDB ölkələri ilə birlikdə aparılan tədqiqatlar daha effektli və məqsədəuyğun ola bilər. Bu məqsədlə MDB ölkələrinin aparıcı elmi mərkəzləri, xüsusən Rusiya Elmlər Akademiyasının Coğrafiya İnstitutu ilə ənənəvi elmi əlaqələri bərpa etmək və genişləndirmək zəruridir.

Rusiya Elmlər Akademiyasının Coğrafiya İnstitutu təşkil olunduğu ilk gündən mühüm elmi-nəzəri və praktiki əhəmiyyəti olan tədqiqatlar aparır. O, keçmiş SSRİ-də

coğrafiya elminə rəhbərlik edir, ölkə miqyasında onun inkişafına zəmin yaradırdı.

Rusiya EA Coğrafiya İnstitutu coğrafiya elminin inkişafı məqsədilə XX əsrin ortalarından başlayaraq İttifaq respublikalarında təşkil olunmuş elmlər akademiyaları üçün aspirantura və doktorantura yolu ilə yüksəkixtisaslı kadrlar hazırlayırdı. Coğrafiya İnstitutunun aparıcı alimləri coğrayfiya elminin yeni istiqamətlərini inkişaf etdirir və onun nəzəri problemlərini işləyirdilər. İnstitut son 30 ildə (keçmiş SSRİ-də) coğrafiya elminə rəhbərlik edir, İttifaq respublikaları ilə elmi əlaqələri möhkəmləndirir və elmin bu və ya digər fundamental istiqamətlərinin işlənməsini tövsiyə edirdi.

İttifaq miqyasında keçirilən konfranslarda Azərbaycan EA Coğrafiya İnstitutunun aparıcı alimləri fəal iştirak edir və aktual elmi məruzələrlə çıxış edirdilər.

Keçmiş SSRİ-də Elmlər Akademiyası təşkil olunduqdan sonra belə institutlar əvvəl Gürcüstanda, sonra isə Azərbaycanda yaradılmışdır (1945). Buna görə də keçmiş İttifaqın elmi ictimayəti Azərbaycan EA Goğrafiya İnstitutunun elmi işçilərinin İttifaq miqyasında apardıqları tədqiqatları yüksək qiymətləndirirdilər. Bunun sayəsində Coğrafiya İnstitutunun əməkdaşları 1970-ci ildən başlayaraq Hindistanın, Bolqarıstan və Fransanın alimləri ilə birlikdə beynəlxalq simpoziumlar keçirmiş, bu ölkələrdə təşkil olunmuş çöl simpoziumlarında iştirak etməklə ona elmi bələdçilik də etmişlər. Azərbaycanın bir sıra alim coğrafları SSRİ EA Coğrafiya İnstitutunun sayəsində xaricdə aparıcı alim kimi tanınmışlar.

Rüsiya Federasiyasının Coğrafiya İnstitutunda dünyada tanınmış qlyasioloqlar, paleocoğraflar və təbiətşünaslar məktəbi yaradılmışdır.

XX əsrin ortalarından başlayaraq SSRİ EA Coğrafiya İnstitutu İttifaq respublikaları EA-nin institutları ilə sıx əlaqə saxlayır, birlikdə aparılan elmi tədqiqatlara rəhbərlik edir, fundamental elmi problemlərin işlənməsinə yardım göstərirdilər.

Bunun sayəsində keçmiş SSRİ-də olan elmlər akademiyalarının coğraflarının vahid metodika üzrə apardıqları elmi işlərin nəticələri bir-birini tamalayırdı.

50-ci illərdə coğrafiya elmləri doktoru N.V.Dumitrasko, D.A.Lilienberq və mənim iştirakımla Cənub-Şərqi Qafqazda geomorfoloji tədqiqatlar başlandı. Əsas məqsəd yüksək seysmikli Şamaxı rayonunun geomorfologiyasını öyrənmək və geomorfoloji üsulla zəlzələnin proqnozunu vermək idi. 1951-ci ildə tamamlanmış bu elmi iş V.V.Belousov və V.C.Xainin təklifi ilə planlaşdırılmışdır və onların bilavasitə rəhbərliyi ilə aparılırdı.

SSRİ və Azərbaycanın Coğrafiya institutlarının əməkdaşlarının apardıqları elmi tədqiqatların materiallarının əsasında bir sıra monoqrafiyalar (B.Ə. Budaqov «Cənub-Şərqi Qafqazın şimal-şərq yamacının geomorfologiyası» (1957); N.V.Dumitraşko, D.A.Lilienberq və B.Ə. Budaqov «Cənub-Şərqi Qafqazın relyefi və yeni tektonikası» (1961)) nəşr edilmişdir. Qafqazın geomorfologiyasına dair bu monoqrafiyalar ilk funldamental əsərlər idi.

İttifaq respublikaları arasında Azərbaycanda N.V.Dumitraşkonun müəllifliyi və redaktorluğu ilə SSRİ-də ilk dəfə «Azərbaycan SSR-in geomorfologiyası» (1969) adlı monoqrafiya, o cümlədən «Azərbaycan SSR-in geomorfoloji xəritəsi» (1:500000) nəşr edilmişdir. Qafqazın geomorfologiyası kitabının nəşrə hazırlanması da Azərbaycan geomorfoloqlarına həvala edilmişdi.

Bu, Azərbaycanda geomorfologiya elminin nailiyyətlərini və bu elmlə məşğul olan alimərin yüksək səviyəli olmasını əyani olaraq sübut edirdi.

Yuxarıda qeyd olunan elmi məktəblərdən başqa, coğrafiya elminin digər istiqamətləri: geomorfologiya, fiziki-coğrafiya, hidrologiya, iqlimşünaslıq, iqtisadi-sosial coğrafiya, ətraf mühitün mühafizəsi, qurunun hidrologiyası, Xəzər dənizinin coğrafiyası, toponimika, əhali coğrafiyası, xəritəçilik, torpaq coğrafiyası və s. inkişaf edirdi. Keçmiş İttifaqın Coğrafiya İnstitutunun əməkdaşları tərəfindən Azərbaycan EA üçün yüksək ixtisaslı elmi kadrlar: akad. B.Ə.Budaqov, akad. A.A.Nadirov, coğrafiya elmləri doktorları Ə.C.Əyyubov, B.A.Əbdürrəhmanov və elmlər namizədləri İ.E.Mərdanov, R.Y.Quliyev və s. yetişdirilmişdir. Moskva coğrafiya məktəbini keçmiş bu alimlər Azərbaycanda elmi kadrların yetişməsinə rəhbərlik etmişlər. Belə ki, B.Ə.Budaqovun və A.A.Nadirovun rəhbərliyi altında 70-dən çox elmlər namizədi və doktor yetişmişdir.

© X.K.Tanrıverdiyev, 2007

AZƏRBAYCANDA GEOMORFOLOJİ TƏDQİQATLARIN PERSPEKTİV İSTİQAMƏTLƏRİ HAQQINDA

X.K.Tanrıverdiyev

Azərbaycan Milli EA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prospekti, 31

Məqalədə Azərbaycan geomorfologiyasının bir sıra müasir problemləri (irimiqyaslı ekoloji-geomorfoloji xəritələrin tərtibi; morfostruktur təhlil; geomorfoloji ritmlərin öyrənilməsi; faydalı qazıntı yataqlarının axtarışı məqsədilə irimiqyaslı paleogeomorfoloji tədqiqatların aparılması; Xəzər dənizi və iri su anbarları sahillərinin dinamikası; müasir tektonik hərəkətlərin öyrənilməsi) və gələcək tədqiqat istiqamətləri verilmişdir.

Azərbaycan Respublikasının ərazisi mürəkkəb geoloji-geomorfoloji quruluşa malik olub, yeni tektonik hərəkətlərin fəallığı, relyefin formalaşmasında maqmatik vulkanların, eləcə də Xəzər dənizinin ümumi reqressiyası fonunda səviyyənin tərəddüdünün böyük rola malik olması ilə səciyyələnir. Qafqazın digər sahələrinə nisbətən Azərbaycan Respublikasının ərazisində qədim buzlaq izləri, müxtəlif yaşlı düzəlmə səthləri və onların qalıqları, dəniz terrasları daha yaxşı saxlanılmışdır ki, bu da onların korrelyasiya edilməsi və müqayisəli surətdə öyrənilməsi üçün geniş imkanlar yaradır.

Bu cəhətlər respublikada, eləcə də keçmiş Sovet məkanında çalışan bir çox geoloq və geomorfoloqların diqqətini həmişə cəlb etmişdir. Ərazi geologiya və geomorfologiyanın bir sıra mübahisəli məsələlərinin həlli üçün, demək olar ki, etalon rolunu oynamışdır. Ona görə də respublika ərazisinin geomorfoloji quruluşu keçmiş Sovet məkanındakı digər respublikaların ərazisinə nisbətən daha yaxşı öyrənilmişdir. Təsadüfi deyildir ki, keçmiş Sovet respublikaları sırasında birinci olaraq 1956-cı ildə «Azərbaycanın geomorfoloji xəritəsi» (1:500 000 miqyasında) və 1959-cu ildə «Azərbaycanın geomorfologiyası» monoqrafiyası çap olunmuşdur.

Sonrakı illərdə respublikanın böyük regionları və onun ayrı-ayrı hissələri üzrə irimiqyaslı geomorfoloji tədqiqatlar aparılmış, Böyük Qafqaz, Kiçik Qafqaz, Talış, Kür depressiyası və Naxçıvan MR-in ümumi geomorfoloji quruluşuna və geomorfologiyanın ayrı-ayrı problem məsələlərinə dair bir sıra monoqrafik əsərlər və çoxlu miqdarda elmi məqalələr çap edilmişdir (Думитрашко, 1953; Думитрашко, Лилиенберг, Будагов, 1961; Будагов, 1965, 1973; Ширинов, 1973, 1975; Будагов, Лилиенберг, Ширинов 2001; Ширинов, Мусеибов 1972; Абасов, 1970; Антонов, 1975; Мусеибов, 1975; Микаилов, 1978; Халилов, 1989 və b.).

Bu nailiyyətlərə baxmayaraq, Azərbaycan geomorfologiyasının bütün məsələləri heç də birmənalı şəkildə öz həllini tapmamışdır. Hətta bir sıra məsələlərin həlli mübahisəli qalmış və gələcəkdə tədqiq olunmasını tələb edir.

Şübhəsiz, Qafqazın cənub-şərq qurtaracağı ilə Xəzər tektonik çökəkliyinin təmasında yerləşən və geomorfologiya elminin bir sıra məsələlərinin həlli üçün təbii laboratoriya rolunu oynayan Azərbaycan Respublikasının ərazisində aparılan tədqiqatlar və onların nəticələri alp qırışıqlığı qurşağına daxil olan digər dağlıq ərazilərdə də geomorfologiyanın müxtəlif məsələlərinin həllində müvəffəqiyyətlə tətbiq edilə bilər.

Təbii ki, gələcəkdə respublikada geomorfoloji tədqiqatlar təkcə mübahisəli məsələlərin həlli istiqamətində aparılmaqla kifayətlənilməyəcək, eyni zamanda, elmin ümumi inkişaf istiqamətlərini və təcrübi əhəmiyyət kəsb edən bir sıra konkret məsələlərin həllini nəzərə almaqla müəyyənləşdiriləcəkdir.

Respublika geomorfoloqlarının qarşısında duran əsas vəzifələrdən biri ərazidə regionlar üzrə irimiqyaslı ekoloji-geomorfoloji tədqiqatların aparılmasıdır. Bunlardan başqa, respublikanın ayrı-ayrı inzibati rayonları üzrə də irimiqyaslı ekoloji-geomorfoloji xəritələrin tərtib edilməsi vacib məsələlərdən biridir. Tədqiqatlar nəticəsində ərazidə mövcud ekoloji-geomorfoloji şəraiti səciyyələndirən xüsusi xəritələrlə yanaşı, proqnoz xarakterli xəritələr də tərtib edilməlidir ki, bu da məkan çərçivəsində təsərrüfat işlərinin düzgün planlaşdırılmasına və

həmin ərazilərdən səmərəli istifadə edilməsinə köməklik göstərə bilər.

Azərbaycanda geomorfoloji tədqiqatların qarşısında duran problemlərdən biri də morfostrukturların təhlili istiqamətində tədqiqatların davam etdirilməsidir. Düzdür, Azərbaycanın ayrı-ayrı regionları üzrə morfostruktur tədqiqatlar aparılmış və morfostrukturların mənşəyi və yaşının müəyyən edilməsi, yeni tektonik hərəkətlərlə, eləcə də yerin daxili quruluşu ilə əlaqəsi, morfostrukturların təsnifatı istiqamətində xeyli işlər görülmüş, xəritələr tərtib edilmiş və monoqrafik əsərlər yazılmışdır (Budaqov, 1973; Ширинов, 1975; Мусеибов, 1975; Budaqov və b. 1998; Ализаде, 1998; Халилов, 1999 və s.). Ancaq müasir dövrdə dağ əmələgəlmədə klassik nəzəriyyənin inkişaf etməsi ilə yanaşı, tavaların tektonikası nəzəriyyəsinin hər yerdə tətbiq edilməsi və geomorfologiyanın fundamental istiqamətlərinə bunların təsiri gələcəkdə morfostruktur tədqiqatların inkişaf etdirilməsini tələb edir. Bu istiqamətin inkişaf etdirilməsi, eyni zamanda, formalaşması relyefin (morstrukturların) inkişafı ilə əlaqədar olan bir sıra faydalı qazıntı yataqlarının axtarışı üçün də böyük əhəmiyyət kəsb edə bilər.

Respublikada geomorfoloji tədqiqatların qarşısında duran məsələlərdən biri də relyefin müasir dinamikasının öyrənilməsidir. Bu, müasir tektonik hərəkətlərin və denudasiya proseslərinin təhlili, onların qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsi, eyni zamanda, tarixi aspektdə denudasion yuyulmanın və kəsimin kəmiyyəti nəzərə alınmaqla öyrənilməlidir.

İstər ekoloji-geomorfoloj, istərsə də relyefin müasir dinamikasının öyrənilməsi və proqnozlaşıdırlması istiqamətində aparılacaq tədqiqatlar bu iki problemin həllində mühüm amil olan morfogenez proseslərin inkişafı və dinamikasının öyrənilməsini tələb edir. Bu məqsədlə təbiətin bütün komponentləri, hadisələri və prosesləri üzrə kəmiyyət və keyfiyyət göstəriciləri əldə etmək üçün ayrı-ayrı təbii rayonlarda və landşaft qurşaqlarında stasionar və yarımstasionar tədqiqatların aparılması vacibdir.

Azərbaycanın ərazisi timsalında geomorfoloji ritmlərin və onunla əlaqədar yaranmış relyef formalarının tədqiq edilməsi respublika geomorfologiyasının qarşısında duran növbəti problemlərdən biridir.

Ümumiyyətlə, geomorfoloji ritmlərlə əlaqədar əmələ gəlmiş relyef və onun ayrı-ayrı formaları həmişə tədqiqat obyekti olmuş və bu istiqamətdə çox işlər görülmüşdür. Ancaq relyef formaları əksər hallarda geomorfoloji ritmlərdən təcrid olunmuş şəkildə öyrənilmişdir. Elə ona görə də bir sıra relyef formaları – düzəlmə səthləri, çay və dəniz terrasları, dördüncü dövr buzlaşmaları və s. bu kimi bir çox məsələlər hələ də tam şəkildə öyrənilməmişdir. Bununla əlaqədar olaraq relyef formalarının bir qrupunun öyrənilməsinə ehtiyac vardır.

Respublikada kifayət qədər öyrənilməmiş məsələlərdən biri də müasir tektonik hərəkətlərdir. Əldə olan məlumatlar aparılan təkrar nivelirləmənəin nəticələrinə əsaslanaraq xüsusilə düzənlik rayonlarda müasir tektonik hərəkətlərin intensivliyini səciyyələndirir (Лилиенберг, 1963; Лилиенберг, Ширинов, 1977 və s.). Dağlıq ərazilərdə müasir tektonik hərəkətlər barədə məlumatlar kifayət dərəcədə deyildir.

Müasir tektonik hərəkətlərin öyrənilməsinin təcrübi əhəmiyyətini nəzərə alaraq, bu istiqamətdə tədqiqatların davam etdirilməsi və seysmik hərəkətlərin, eləcə də palçıq vulkanlarının fəal baş verdiyi ərazilərdə təkrar nivelirləmə xətlərinin təşkil edilməsi vacibdir.

Respublikada geomorfoloji tədqiqatların qarşısında duran mühüm məsələlərdən biri də ərazidə paleogeomorfoloji tədqiqatların davam etdirilməsidir. Məlum olduğu kimi, ayrı-ayrı regionlar üzrə əvvəllər aparılmış bir sıra geoloji və geomorfoloji işlərdə relyefin inkişaf tarixinə diqqət yetirilmiş və bəzi geoloji dövrlərdə mövcud geomorfoloji şəraiti əks etdirən paleogeomorfoloji və paleocoğrafi xəritələr tərtib edilmişdir (Хаин, Шарданов 1952; Будагов, 1969; 1973; Антонов, 1971; Мусеибов, 1975; Ширинов, 1977; Мамедов, 1977 və b.)

1981-ci ildən isə ərazidə regionlar üzrə xüsusi paleogeomorfoloji tədqiqatlar aparılmış, yeni tektonik mərhələnin ayrı-ayrı epoxaları üzrə transqressiv və reqressiv mərhələlər üçün paleogeomorfoloji xəritələr tərtib edilib, monoqrafik əsərlər yazılmışdır. Kür çökəkliyi, Kiçik Qafqaz və Talış üzrə monoqrafik əsərlər çap edilmişdir (Hacıyev, 1999; Xəlilov, 1999; Tanrıverdiyev, 2002).

Aparılmış tədqiqatlar nəticəsində geomorfoloji mərhələnin ayrı-ayrı epoxaları üzrə paleogeomorfoloji şərait öyrənilmiş, mövcud geomorfoloji şəraiti əks etdirən xəritələr tərtib olunmuş, ərazidə müxtəlif mənşəli faydalı qazıntı yataqlarının formalaşması üçün perspektivli hesab edilən zonalar müəyyən edilmişdir. Ancaq faydalı qazıntı yataqlarının axtarışı məqsədi ilə konkret ərazilərin daha dəqiq öyrənilməsi məqsədə-

uyğundur. Hətta başqa üsullarla kəşfi mümkün olmayan və ya çox xərc tələb edən bir sıra faydalı qazıntı yataqlarını az vəsait və vaxt sərf etməklə müəyyənləşdirməkdə köməklik göstərə biləcək paleogeomorfoloji tədiqaqtaların əhəmiyyətini nəzərə alaraq onun davam etdirilməsinə ehtiyac vardır.

Məlum olduğu kimi, bütün mezokaynozoy dövründə çökmə və çöküntü toplanma sahəsi olmuş Kür depressiyası Azərbaycanda, eləcə də bütövlükdə Qafqaz regionunda ən perspektivli neftli-qazlı hövzələrdən biridir. Depressiyanın paleotektonik və paleogeomorfoloji inkişafının, eləcə də ərazidə aparılmış geoloji-geofiziki tədqiqatların təhlili göstərir ki, depressiyanın təkində böyük neft və qaz ehtiyatının toplanması üçün geniş potensial şərait olmuşdur. İndiyə qədər Kür çökəkliyində, eləcə də respublikanın digər neftli-qazlı ərazilərində çıxarılan neftin hamısı, demək olar ki, əsasən struktur yataqlarla əlaqədar olmuşdur. Təcrübə və axtarış işlərinin təhlili göstərir ki, struktur yataqların axtarışı artıq başa çatmış və demək olar ki, tükənmişdir. Bununla əlaqədar olaraq quruda neft istehsalı azalmışdır.

Neft və qaz istehsalı sahəsində dünya təcrübəsindən aydın olur ki, depression sahələrdə dənizin reqressiv mərhələlərində əmələ gəlmiş müxtəlif relyef formaları (çay yataqları, gətirmə konusları, deltalar, sahil valları və s.) sonrakı transqressiyalar zamanı cavan dəniz çöküntüləri altında basdırılaraq, qeyri-struktur neft və qaz yataqlarının formalaşması üçün əlverişli sahələr hesab edilə bilər.

Dağlıq ərazilərdə aparılacaq paleogeomorfoloji tədqiqatlar başqa növ istər səpinti və istərsə də köklü faydalı qazıntı yataqlarının axtarışında müstəsna rol oynaya bilər. Əlbəttə, bu məqsədlərlə paleogeomorfoloji tədqiqatların geniş ərazilərdə deyil, konkret sahələrdə və daha iri miqyasda aparılması məsləhətdir.

Respublikada geomorfologiya elminin qarşısında duran problemlərdən biri də Xəzər dənizinin səviyyəsinin tərəddüdü ilə əlaqədar olaraq sahillərin dinamikasının öyrənilməsidir.

Məlum olduğu kimi, Xəzər dənizi sahillərinin geomorfologiyası, onun dinamikası həmişə tədqiqat obyekti olmuş və öyrənilmişdir (Леонтьев, Халилов, 1965; Мехтиев, 1966 və b.). Ancaq son illər, xüsusilə 1990-cı illərdən başlayaraq başqa sahələrdə olduğu kimi, bu sahədə də tədqiqat işləri xeyli zəiflməiş və lazımi səviyyədə aparılmamışdır. Gələcəkdə sahillərin dinamikasının öyrənilməsi məqsədi ilə müəyyən sahələrdə stasionar və yarımstasionar tədqiqatların təşkil edilməsi vacibdir. Bu tip tədqiqatların iri su anbarları sahillərində də aparılmasına ehtiyac vardır.

Yuxarıda sadalanan problem məsələlərin həlli üçün əsas üsullardan biri kimi çöl-ekspedisiya tədqiqatlarının aparılmasıdır ki, bu da məlum səbəblərlə əlaqədar aparılmır.

ƏDƏBİYYAT

BUDAQOV, B.Ə., ƏLİZADƏ, E.K., HACIYEV, V.D., XƏLİLOV, H.A., QULUZADƏ, V.Ə., MƏRDƏNOV, İ.E., MİKAYILOV, A.A., CƏFƏROV, A.S., ŞİRİNOV, N.Ş., TANRIVERDİYEV, X.K., ABDULLAYEV, R..S. 1998. Azərbaycan Respublikasının geomorfoloji xəritəsi.

АБАСОВ, М.А. 1970. Геоморфология Нахичеванской АССР. Элм. Баку. 187.

АЛИЗАДЕ, А.К. 1988. Морфоструктурное строение горных сооружений Азербайджана и сопредельных территорий. Элм. Баку. 246.

АНТОНОВ, Б.А. 1971. Геоморфология и вопросы новейшей тектоники юго-восточной части М.Кавказа. Элм. Баку. 160.

БУДАГОВ, Б.А. 1965. Современное и древнее оледенение азербайджанской части Большого Кавказа. Изд. АН Азерб. ССР. Баку. 156.

БУДАГОВ, Б.А. 1969. Геоморфология Южного склона Большого Кавказа. Изд. АН Азерб. ССР. Баку. 178.

БУДАГОВ, Б.А. 1973. Геоморфология и новейшая тектоника Юго-Восточного Кавказа. Элм. Баку. 246.

БУДАГОВ, Б.А. ЛИЛИЕНБЕРГ, Д.А. ШИРИНОВ, Н.Ш. 2001. Основные проблемы геоморфологии Азербайджана на рубеже столетий (1980-2000 гг.) и проблемы геоморфологии Кавказа и Предкавказья. Материалы Международ. Совещ. «*Георморфология гор и равнин: взаимосвязи и взаимодействие*» XXIV Пленум Геоморфолог. Комисс. РАН. Краснодар. 27-39.

ГАДЖИЕВ, В.Д. 1999. Палеоморфология областей мезокайнозойского вулканизма Нахичевани и Талыша. Агридаг. Баку.194.

ДУМИТРАШКО, Н.В. и др. (под ред.). 1956. Геоморфологическая карта Азербайджана.

ДУМИТРАШКО, Н.В, ЛИЛИЕНБЕРГ, Д.А, БУДАГОВ, Б.А. 1961. Рельеф и новейшая тектоника юго-восточного Кавказа. Изд. АН СССР. Москва.

ДУМИТРАШКО, Н.В. 1953. Проблема происхождения и возраст поверхностей выравнивания. *Тр. конр. по геоморфологии Закавказья.* Изд. АН Азерб. ССР. Баку.

КАШКАЙ, М.А. 1959. Геоморфология Азербайджана. Изд. АН Азерб. ССР. Баку. 368.

ЛЕОНТЬЕВ, О.К., ХАЛИЛОВ, А.И. 1965. Природные условия берегов Каспийского моря. Изд. АН Азерб. ССР. Баку. 204.

ЛИЛИЕНБЕРГ, Д.А. 1963. Современные тектонические движения и морфоструктурные особенности Восточного Кавказа и Закавказья. В сб.: *Современные движения земной коры*. Изд. АН СССР. Москва. 284-296.

ЛИЛИЕНБЕРГ, Д.А., ШИРИНОВ, Н.Ш. 1977. Современные тектонические движения. В кн.: *Общая характеристика и история развития Кавказа*. Москва. 45-5.

МАМЕДОВ, А.В. 1977. История геологического развития и палеогеография Среднекуринской впадины в связи с нефтегазоносностью. Элм. Баку. 212.

МЕХТИЕВ, Н.Н. 1966. Динамика и морфология западного побережья Южного Каспия. Изд-во АН Азерб. ССР. Баку. 112.

МИКАИЛОВ, А.А. 1978. Геоморфология Кусарской наклонной равнины. Элм. Баку. 80.

МУСЕИБОВ М.А. 1975. Геоморфология и новейшая тектоника Среднекуринской впадины. Азернешр. Баку. 200.

ТАНРЫВЕРДИЕВ, Х.К. 2002. Палеогеоморфология Куринской межгорной впадины (в пределах Азербайджана). Баку. 216.

ХАИН, В.Е., ШАРДАНОВ, А.Н. 1952. Геологическая история и строение Куринской впадины. Изд-во АН Азерб. ССР. Баку. 348.

ХАЛИЛОВ, Г.А. 1989. О проблемах геоморфологии и возможностях их решения. *Изв. АН Азерб. ССР. Сер. наук о Земле*, 6.

ХАЛИЛОВ, Г.А. 1999. Морфоструктуры восточной части Малого Гафгаза. Азербайджанская энциклопедия. Баку. 27.

ШИРИНОВ, Н.Ш. 1973. Геоморфологическое строение Кура-Араксинской депрессии. Баку. Элм. 216.

ШИРИНОВ, Н.Ш. 1975. Новейшая тектоника и развитие рельефа Кура-Араксинской депрессии. Элм. Баку. 191.

ШИРИНОВ, Н.Ш., МУСЕИБОВ, М.А. 1972. Проблемы физической географии и геоморфологии Азербайджана. *Уч. Зап. АГУ, сер. геоло-геогр. наук,* 1.

Məqalə akademik B.Ə.Budaqov tərəfindən təqdim edilmişdir

© V.A.Məmmədov, 2007

KÜR ÇÖKƏKLİYİ GÖLLƏRİNİN EKOCOĞRAFİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI (Azərbaycan hüdudlarında)

V.A.Məmmədov

Azərbaycan MEA Geologiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prospekti, 29A

Məqalədə hidroloji, hidrokimyəvi və hidrobioloji məlumatlardan istifadə olunaraq Kür çökəkliyindəki göllərin təbii rejim və antropogen təsirli inkişaf dövrləri araşdırılır. Müəyyən olunub ki, regionda müxtəlif yönlü hidrotexniki və s. tədbirlər həyata keçirilərkən ətraf mühitin qorunması probleminin nəzərə alınmaması göllərin ekoloji şəraitini pozmuşdur. Son 100 ildə göllərin sahəsi təxminən 1500 km² - dən 230 km²-ə, su həcmi isə 1 km³-dən 250 mln.m³-ə kimi azalmışdır. Göllər çay suları ilə hidravlik əlaqəni itirdiyindən onların minerallaşma dərəcəsi və çirklənməsi kəskin artmış və nəticədə onlar özünü bərpa etmə qabiliyyətini itirmişlər.

Konstruktiv üsullarla böyüksahəli göllərin hidroekoloji şəraitinin bərpası yolları təklif olunur.

Giriş. Tədqiqat obyekti – Kür çökəkliyinin Azərbaycan hüdudlarında yerləşən, müxtəlif inkişaf səviyyəli və ekoloji durumu olan 100-ə yaxın göldür. Müxtəlif yönlü təsərrüfat sahələrinin, xüsusən də suvarma əkinçiliyinin inkişaf etdiyi Kür çökəkliyi təbii vilayətində göllərin və göl-çay sistemləri rejiminin XX əsrdə insanların təsərrüfat fəaliyyəti nəticəsində dəyişdirilməsi, bəzilərinin isə tam qurudulması bu əraziləri təkcə respublikamızda deyil, hətta Cənubi Qafqaz dövlətləri hüdudunda ekolimnoloji şəraiti kəskin pozulmuş bir regiona çevirmişdir.

Kür, Araz və onların qolları üzərində yaradılmış su anbarları və axımı tənzimləyən qurğular, çay məcralarının dəyişdirilməsi, kanallaşdırılması, kollektor-drenaj şəbəkəsinin inkişafı və s. tədbirlər nəticəsində Kür çökəkliyindəki 100-ə yaxın gölün çox hissəsi gursulu dövrdə çay suları ilə qidalanmadan təcrid olunaraq onların sahə və dərinlikləri azalır, temperatur rejimi pozulur, minerallaşma və çirklənmə dərəcəsi artır, biomüxtəliflik və biokütlə isə azalır. Geoloji dövr ərzində formalaşmış su və kimyəvi maddələr axımının paylanma tarazlığının zaman və məkan daxilində pozulması göllərdə hidrobiokimyəvi kompleksin transformasiyasına səbəb olmuşdur. Gərginləşmiş hidroekoloji vəziyyətin həll olunmaması bir sıra iqtisadi və sosial problemlər yaratmışdır.

Məlumatların mənbəyi və metodik əsas. Göllərdə yerinə yetirilən mütəmadi hidrometeoroloji ölçü və müşahidələr Hidrometeroloji İdarə (indiki Ekologiya və Təbii Sərvətlər Nazirliyi) tərəfindən 1941-ci ildə başlamışdır. Bu məlumatlara su səviyəsinin tərəddüdü, su səthinin temperaturu və vəziyyəti, soyuq keçən qış dövründə göldə formalaşan buz hadisələri və suyun kimyəvi xassələrinin təyini daxildir. Qeyd etdiyimiz bu məlumatlarda təhriflər və müşahidə aparılmayan, qırılmalar olan dövr olsa da, ümumən hidroloji göstəricilərin təbii və antropogen rejimli mərhələlərini əhatə edir.

Regiondakı nisbətən böyük göllərin kompleks, coğrafi əsasla tədqiqi 1974-76-ci illərdə AMEA Coğrafiya İnstitutu tərəfindən yerinə yetirilib.

Sonralar 1980-86-ci illərin müxtəlif fəsillərində göllərin kimyəvi xassələri Hidrometeoroloji Komitə tərəfindən tədqiq olunmuşdur. Haqqında danışdığımız bu tədqiqatların hamısında müəllif də bilavasitə iştirak etmişdir.

1998-2005-ci illərdəki çöl tədqiqatlarında yüzə yaxın göl tədqiq olunaraq limnogenezin təkamülünə səbəb olan amillərin araşdırılmasına daha çox diqqət yetirilmişdir.

Hidrobiontların təbii rejim və antropogen təsirli dövründəki vəziyyəti haqqında məlumatlar nəşr olunmuş hidrobioloji tədqiqaqtlara əsaslanır.

Tədqiqat balans və landşaft prinsipləri əsasnıda yerinə yetirilərək çöl işləri, laboratoriya və elmi təhlil mərhələlərini əhatə edib bir çox metod və üsullara əsaslanır. Coğrafi-hidroloji metod analizindən (analoq-statistik-ehtimal hesablamaları, korrelyasiya və trend əlaqə üsullarından) istifadə olunaraq göllərdə fiziki, kimyəvi və bioloji proseslərin əlaqə və xassələrinin zaman və məkan daxilində dəyişkənliyi müəyyənləşdirilib.

Göllərin morfometrik ölçülərinin təyini və onların zamanla dəyişmə xassələrinin qiymətlən-

dirilməsi topoplanşet və müxtəlif miqyaslı aerofotoplanalma şəkillərindən istifadə edilərək, morfometrik və kartometrik metodlara əsaslanır.

Dib çöküntülərinin qranulometrik tərkibi fraksiometr və ələk-damcıtökən, üzvi karbonun miqdarı isə Knop metodu ilə təyin edilib.

Su və dib çöküntülərində radioaktivliyin – uran (radiuma görə), torium və kaliumun təyinində SARİ-2 cihazından istifadə edilərək qamma-spektrometrik üsulla öyrənilib.

Mikroelementlərin təyinində atom-absorbs və spektral metodlarından, kimyəvi makrokomponentlərin təyinində isə rentgen-spektral və s. metodlardan istifadə olunub. Təyin olunan mikroelementlərə Li, Rb, Cu, Ag, Au, Zn, Cd, Sr, Ba, Ga, Ja, Ge, Sn, Pb, V, Nb, Sb, Bi, Cr, Mo, W, Mn, Fe, Co, Ni, S, Ng aiddir. Su kütləsi və dib çöküntülərinin keyfiyyət xassələlrinin təbii və antropogen dövrlər üçün qiymətləndirilməsində müxtəlif illəri və fəsilləri əhatə edən yüzlərlə nümunələrin kimyəvi analizləri təhlil olunmuşdur. Antropogen təsir nisbətən az olan göllərdən su nümunələrinin müəyyən hissəsi vegetasiyanın zəiflədiyi payız dövründə götürülməsi «Survey lakes» layihəsinin tövsiyələri əsasında həyata keçirilmişdir. Su kütləsinin kiməvi xassələrə və minerallaşma dərəcəsinə görə qruplaşdırılması O.A. Alyokinin (1970) hidrokimyəvi təsnifatlarına əsaslanır.

Göl sularının çirklənmə xassələri və xüsusən də çirklənmə dərəcəsinin qiymətləndirilməsində SÇİ şkalasından (1984) istifadə olunub.

Göllərdə su həcminin illik və çoxillik dövr ərzində tərəddüdü su balansı metodu ilə müəyyənləşdirilib. Yeraltı axımın miqdarı hidrogeoloji üsullara əsasən təyin olunub.

Problemin müasir vəziyyəti və tədqiqatın nəticələri. Arid iqlimli Kür çökəkliyi ərazisində yerləşən göllərin miqdarı və su ehtiyatları, aşağı hissələri bu regionda yerləşən çayların axım xüsusiyyətlərindən asılı olaraq zaman-zaman dəyişmişdir. Təbii rejim dövründə maddələr və enerji dövranının ümumən pozulmadığı bir şəraitdə baş verən bu tədrici dəyişmələr təbii proseslərlə formalaşdığından heç bir ekoloji problem yaratmırdı. XIX əsrin axırı, XX əsrin əvvəllərindən başlayaraq müxtəlif yönlü təsərrüfat sahələrinin inkişafı suya və enerjiyə olan tələbatı artırır. Suvarılan əkin sahələrinin artımı, kollektor-drenaj sisitemlərinin yaradılması, hidroenerji istehsalı və s. ilə əlaqəli həyata keçirilən bir çox hidrotexniki tədbirlərdə ekoloji vəziyyətin nəzərə alınmaması gölləri çayların daşqın suları ilə qidalanmadan məhrum edir. Belə bir vəziyyətdə bir çox göllərin sahələri azalmış, suları və dib çöküntüləri duzlaşmış, çirklənmiş, hidrobiontların müxtəlifliyi və kütləsi kəskin azalmışdır. Çay sular ilə əlaqəsi olmayan Acinohur, Qazangöl, Duzdağ-böyük, Duzdaq-kiçik və s. göllər isə öz təbii vəziyyətlərinə yaxın bir şəraitdə inkişaf edirlər. Beləliklə, regionun əksər göllərinin inkişafında iki mərhələ nəzərə çarpır:

1-ci mərhələ – təbii rejim dövrü olub, şərti olaraq 1953-cü ilə kimi olan müddəti əhatə edir. Muğan düzündəki Ağçala-Mahmudçala sistemi gölləri üçün təbii rejim dövrü «Yeni Araz» çayının şlüzlənməsilə 1908-ci ildə bitib.

2-ci mərhələ - göllərə antropogen təsirin aktivləşdiyi, yəni Mingəçevir su qovşağının fəaliyyətə başladığı (1953-cü ildən sonrakı) dövrü əhatə edir. Biri o birindən kəskin fərqlənən hər iki inkişaf mərhələsinin xüsusiyyətlərini nəzərdən keçirək (Məmmədov 1998 a,b, 1999, 2000, 2004a,b; Мамедов 1997, 2003, 2004 və b.).

Təbii rejim və ya o vəziyyətə yaxın dövrdə Kür çökəkliyindəki göllərin böyük əksəri (rapalı gölləri nəzərə almasaq) Kür və Arazın gursulu-daşqınlı dövrdəki suları ilə qidalandığından onların rejim xüsusiyyətləri çayların axım həcmindən asılı olaraq formalaşırdı.

Gursulu dövrdə göllərin su səviyyəsi 1-2 m və davamlı daşqınlarla müşayiət olunan vaxtlarda isə göl çalasının dərinliyindən asılı olaraq 3-4 m arta bilirdi. Su səviyyəsinin sutka ərzində ən intensiv artımı (7-8 sm-dən ≥ 30-40 sm) gursulu dövrün əvvəllərində müşahidə olunurdu. Minimal səviyyələr isə yayın axırı və qışda qeydə alınırdı.

Su balansının gəlir hissəsinin əsasını çay suları, çıxar hissəni isə axarsız göllərdə buxarlanma, vaxtaşırı axarlı olan göllərdə isə səthi axar+buxarlanma təşkil edirdi. Qrunt sularının rolu çox cuzi idi.

Su kütləsi temperaturunun illik amplitudu 30^0 C-yə yaxın olub, 4^0 C-ni keçərək artması havaya nisbətən 2-4 həftə gec baş verir. Maksimal temperatur iyulun 2-3-cü ongünlüyünə düşürdü. Hava və göl suyu temperaturları arasında sıx əlaqə mövcüddur. Bu düzxətli əlaqənin analitik ifadəsini regionun iki gölü timsalında nəzərdən keçirək.

1. Hacıqabul gölü üçün:

$$y=1.1622x-2.4068,\ R^2=0,9939$$

2. Sarısu gölü üçün:

$$y=1.0579x-0.6687,\ R^2=0,9866$$

Duzlarla ifrat dərəcədə ($\sum_i$ =90-380 q/dm^3) doymuş Acinohur, Duzdağ və s. göllərdə, adətən, yaz yağışlarından sonra, küləksiz hava şəraitində gölün səthində bir neçə sm qalınlığında şirin su layı əmələ gəlir. Şirin suyun sıxlığı altdakı şor suya nisbətən az olduğundan onlar bir müddət bir-birinə qarışmır və bu dövrdə şirin su layı optik linza rolunu oynayaraq bir növ «istixana effekti» əmələ gətirir. Yəni şəffaf şirin su layından keçən günəş şüaları altdakı şor suyu qızdırır və şor sudan buxarlanmaya istilik itkisi olmadığından onun temperaturu kəskin (3-5^0 C) artaraq qısamüddətli temperatur inversiyası formalaşdırır. Sərt keçən qış aylarında qısamüddətli sahil buzu və ya dəyanətsiz buz örtüyü formalaşır.

Göllərdəki su kütləsinin şəffaflığı çox vaxt mezohumoz (≥2m) qrupa yaxın idi (Məmmədov, 2006 a, b). Gursulu illərdə şirin (≤ 1 q/dm^3), qıtsulu illərdə isə az şorluqlu (≤ 3-5 q/dm^3), hidrokarbonat sinfinə aid olan bu sular hər il yenilənd iyinldən və onlarda aerob proseslər dominant olub, həll olmuş oksigenin miqdarı 8-11 q/dm^3 təşkil etdiyindən hidrobiontlar aləminin inkişafı üçün kifayət qədər idi (1-ci şəkil).

Şirin su balıqları ilə bol olan bu göllərdən hər il on minlərlə sentner çəki, naxa, sıf, çapaq, külmə, həşəm və s. vətəgə balıqları ovlanırdı. Bəzi illərdə ümumi balıq ovunun miqdarı 100 min sentnerdən artıq olub.

Göllərdən hər il təxminən 2-3 min ədəd su qunduzu dərisi tədarük olunurdu. Bu qunduzlar xəz-dəri tədarükünün inkişafı məqsədilə 1930-cu illərin əvvəllərində Argentinadakı Parana və Rio Neqro çayları hövzəsindən gətirilərək respublikamızın aran ərazi göllərində artırılırdı (Verehaqin, 1986). Göllərin qidalanma rejimindən asılı olaraq xəz-dəri tədarükü də müəyyən dərəcə artıb-azalırdı.

Salyan yaxınlığında, Kür çayının sol sahilində yerləşən rapalı Duzdağ-böyük gölündən müəyyən miqdar xörək duzu istehsal olunurdu.

Antropogen təsirə qədərki dövrdə Kür çökəkliyindəki göllərin ümumi sahəsi təxminən 1500 km^2, su ehtiyatı isə 1,0 km^3 idi.

Beləliklə, qeyd etmək olar ki, təbii rejim dövrundə göllər zaman-zaman formalaşmış bir şəraitdə inkişaf edirdi.


Antropogen təsirin inkişafı göllərdə formalaşmış rejimi pozur. Şirvan Qarasu və «Yeni Araz» çay-göl sisteminin qurudulması, çay sularını qəbul edən göllərin əsas qida mənbəyindən təcrid olunması ilə onların sahə və su həcmlərinin azalması, minerallaşma və çirklənmə dərəcəsinin artması, evtroflaşma prosesinin aktivləşməsi, hidrobiontların növ müxtəlifliyi və biokütləsinin azalması kimi fəsadların yaranmasına şərait yaranır.

Regionda göllərin böyük oroqrafik ərazilər üzrə paylanması qeyri-bərabərdir (cədvəl 1).

Böyük sahəli göllər Mil düzündə, kiçiklər isə Muğan və Şirvan düzlərində yerləşib. Əgər Ağçala və Mahmudçala göllərinin qalıqlarını nəzərə almasaq, o zaman belə bir qənaətə gəlmək olar ki, Mugan düzü göllərinin böyük əksəri suvarma kanallarından süzülən və əkin sahələrinin tullantı suları hesabına mövcuddur. Regionun hər 1000 km^2-nə 2,4 göl düşür və onlar ümumi ərazinin 0,6%-ni əhatə edir. Göllərin su səthi sahəsinin 91 %-i sahəsi 1 km^2-dən böyük 11 göldə cəmlənib. Sahələri 50 km^2-dən artıq olan Ağgöl və Sarısuda isə region göllərinin ümumi sahəsinin 54%-dən artığı yerləşib. Göllərin ərazidə paylanması və onların morfometrik kəmiyyətləri haqqında daha dolğun məlumatlar əsərlərdə (Məmmədov, 1998 a, 1998 b, 2005) göstərilmişdir.

Regiondakı xarakter göllərin müxtəlif rejim dövrlərindəki əsas xassələri cədvəl 2-də verilmişdir.

Göllərin qidalanma rejimi pozulduğundan su səviyyəsinin maksimal və minimal kəmiyyətlərinə ilin bütün mövsümlərində təsadüf etmək olar. Əksər göllərdə orta və qıtsulu illərdə səviyyələrin azalması prosesi davam edir, bir çoxları isə quruma həddinə yaxınlaşır.



1-ci şəkil. Antropogen təsirli dövrdə (1985-87-ci illərdə) Hacıqabul gölünün su kütləsində şəffaflıq (- - -), rənglik (—) və asılı hissəciklər (-·-) miqdarının tərəddüdü.

1-ci cədvəl

Göllərin oroqrafik ərazilər üzrə paylanması

№	Region	n	Su səthinin sahəsi, F		Suyun həcmi, W		Su səthinin sahəsi 1 km²-dən böyük və kiçik olan göllərin miqdarı*
			km²	%	mlm. m³	%	
1	Şirvan düzü	33	15,64	6,93	16,87	6,9	1/32
2	C.Ş. Şirvan düzü	2	4,6	2,04	3,7	1,51	1/1
3	Qarabağ düzü	4	5,65	2,50	21,97	8,99	1/3
4	Mil düzü	9	158, 18	70,13	134,18	54,92	3/6
5	Muğan düzü	40	8,59	3,81	4,67	1,91	0/40
6	Salyan düzü	4	6,5	2,88	3,43	1,40	2/2
7	Ceyrançöl	2	14,0	6,21	52,3	21,41	2/0
8	Acınohur	1	12,4	5,50	7,2	2,95	1/0
9	Σ	95	225,56	100	244,32	100	11/84

*Kəsirin sürətində F>1, məxrəcdə F<1 qeyd olunub

Göllərdə su həcminin azalması onların daha intensiv isinməsinə səbəb olmuşdur. Təbii rejim dövrü ilə müqayisədə göl sularının (Hacıqabul və Sarısu göllərinin timsalında) orta çoxillik temperaturu 1,6-3,4⁰ C, dövrün maksimumu isə 0,7-5,0⁰ C artmışdır. Sözsüz ki, göllərin son yarım əsrdə isinməsi buxarlanmanın və suyun mineralləşmə dərəcəsinin artımının intensivləşməsinə səbəb olmuşdur. Göllərin temperatur rejimi haqqında daha geniş məlumatlar (Məmmədov, 2006 a) verilmişdir.

Göllərdə su həcminin azalması və çirklənməsi optik və orqanoleptik xassələri pisləşdirmişdir. Fotosintez zonanı əhatə edən evfotik layın dərinliyi 30-50% azalaraq, suyun şəffaflığı ≤ 1,0 m olan polihumoz mühit formalaşmışdır (şəkil 2). Göllərin əksərində qoxu intensivliyi artaraq 3-4 ball təşkil edir(Məmmədov, 2006 b).

Tədqiq etdiyimiz göllərin əksərində su dövranının zəifləməsi, çirklənmə və həll olmuş duzların miqdarının artması onlardakı hidrobiokimyəvi tarazlığı pozmuşdur. Ətalətli su dövranı kimyəvi element və maddələrin çalada toplanmasına şərait yaradır. Müxtəlif illəri və fəsilləri əhatə edən su nümunələrinin analizi göstərir ki, göl suları tərkibcə və mineralaşma dərəcəsinə görə çox müxtəlifdir. Ceyrançöl və Mil düzündəki göllər kimyəvi tərkibcə əsasən sulfat sinfinə, digər ərazilərdəki göllər isə əsasən xlorid sinfinin müxtəlif qrup və tiplərini əhatə edir. Ən az (1-3 q/dm³) minerallaşma Candar, Mingəçevir qum karxanaları və Qazangöldə, ən çox (90-380 q/dm³) isə Duzdağ-böyük və Acınohurda müşahidə olunub. Son yarım əsrdə göl sularının duzluluğu on dəfələrlə artdığından onların su kütləsində külli miqdarda, 3 milyon tona yaxın həll olmuş vəziyyətdə mineral maddələr (muxtəlif duzlar) toplanmışdır ki, bu da müasir dövrdə göllərin geoloji fəaliyyətlərindən biri kimi qiymətləndirilə bilər.

Göllərin böyük əksəri müxtəlif mənşəli və dərəcəli antropogen çirklənməyə məruz qaldığından xarakterik göllər üçün suyun çirklənmə indeksi (SÇİ) təyin olunmuşdur. Suda təhlükə yarada bilmə xassələrinə (7 sinifdə qruplaşmış) görə seçilmiş kimyəvi element və birləşmələrin təhlili göstərir ki, regionda təmiz sulu gölə Qazangöl (SÇİ=0,5), mülayim çirklənmişlərə Candar (3,53) və Mingəçevir qum karxanası (2,7-4,0) gölləri aid edilir. Sonunçu iki gölün əsas su qida mənbəyi Kür çayıdır, Candarda kanal vasitəsilə, ikincidə isə su anbarı və Yuxarı Qarabağ kanallarında süzülmə ilə, amma onların çirklənmə mənbələri müxtəlif olub, Candarda daha poligen xassəlidir.

Acınohur gölündə SÇİ VI sinifə aid olub 6,47 təşkil edr. Bu göldə SÇİ-nin belə yüksək olması, çox güman ki, yaxınlıqdakı yaşayış məskənlərindən gölə axıdılan məişət-kommunal və əkin sahələrinin artıq suları hesabına formalaşmışdır.


Digər əksər göllərdə SÇİ-nin göstəricisi >10,0. Bu göllərin su kütləsi kəskin dəyişərək metomorfizmə uğramışdır.

Mikroelementlərdən – Zn, Cu, Ba, Ni, Cr, Mn, Li və s. əksər göllər üçün tipomorf sayıla bilər.

Göllərdəki dib çöküntülərinin toplanma prosesi, mənşəyi, ölçüləri, mineraloji və kimyəvi tərkibi müxtəlifdir (2-ci şəkil). Rapalı olmayan göllərdə sedimentasiya prosesinin intensivliyi çox cüzi olub, ildə mm-in həssələri qədərdir. Rapalı göllərdə isə bu kəmiyyət bir neçə dəfə artır.

Antropogen təsir dövründə şirin sularda ömür sürən bitki və canlılar aləminin arealı azalır, onlar sıxıntı keçirir və ya məhv olurlar. Bu dövrdə evriterm və evriqalinlərin inkişafı üçün münbit şərait yaranır. Hidrobiontların təkamülü oliqosaproblardan evribiontlar istiqamətində inkişaf edir. Balıq ovunun miqdarı suyun həcmi və fiziki-kimyəvi xassələrindən asılı olduğundan kəskin azalmış, bir çoxlarında isə tam dayandırılmışdır. Antropogen təsirin inkişafı göllərin evtroflaşmasına səbəb olmuşdur. Göllərin tipoloji xassələrinin dəyişərək bir trofik vəziyyətdən digərinə (gənclikdən-qocalığa doğru) keçidi oliqotrof → mezotrof → evtrof sxemi üzrə baş verir.

Antropogen təsirin inkişafı itirilməkdə olan şirin su, balıq və xəz-dəri (su qunduzu) ehtiyatlarının bərpası istiqamətində müəyyən tədbirlərin görülməsinə ehtiyac yaradır. Sahəsi böyük olan Sarısu, Ağgöl, Mehman, Mingəçevir qum karxanaları gölləri və Hacıqabul gölünün morfometrik elementləri və su balansını təşkil edən ünsürlərin tənzimlənməsilə onların su və bioehtiyatlarını bərpa etmək olar. Ətraf mühitin qorunması və ehtiyatlarından səmərəli istifadə yönümlü olan bu işlər həyata keçirilərsə, bir sıra ekoloji, iqtisadi və sosial problemlərin yerli miqyasda həllinə yardım olardı.



2-ci şəkil. Rapalı-axarsız göldə dib çöküntülərini formalaşdıran amillər.

Əsas nəticələr və tövsiyələr:

1. Regionda 100-ə yaxın göl var ki, onların böyük əksəri ekzogen proseslərlə və xüsusən də çay sularının eroziya fəaliyyətilə formalaşıb. Göllərin miqdarının 75 %-dən, su səthi sahəsinin isə 88 %-dən artığı okean səviyyəsindən alçaqda, Xəzər dənizi səviyyəsindən yüksəkdə yerləşir. Bu göllər zaman-zaman müxtəlif yüklü antropogen təsirə məruz qalaraq XX əsrdə öz ilkin xassələrini itirmişlər.

2. Regionun göl və çay-göl sistemlərinin formalaşması və inkişafı iki əsas mərhələ ilə əlaqədardır:

- hidroqrafik şəbəkə və hidroloji rejimin təbii inkişaf dövrü, Candar gölü üçün XIX əsrin 70-ci illərinə kimi, «Yeni Araz» sistemindəki göllər üçün 1908-ci ilə kimi, Kür-Araz ovalığındakı əksər göllər üçün 1953-cü ilə kimi olan dövrü əhatə edir:
- hidroqrafik şəbəkə və hidroloji rejimin antropogen təsirlə dəyişərək ekoloji gərginlik yaranan dövru. Bu zaman Şirvan Qarasu və Ağçala-Mahmudçala çay-göl sistemi qurudulur, göllər kəskin çirklənir.

Təbii rejim və ya o vəziyyətə yaxın dövrdə (XIX əsrin axırı – XX əsrin əvvəllərinə kimi) Kür çökəkliyindəki göllərin ümumi sahəsi təxminən 1500 km², su ehtiyatları isə 1,0 km³ idi. Şirin və ya az şorluqlu olan bu sular özlərini bərpa edə bilirdi. XX əsrin 2-ci yarısında göllərin ümumi sahəsi 240 km², onlardakı su kütləsinin həcmi isə 247 mln. m³-ə kimi azalmışdır. Çay suları ilə qidalanmadan təcrid olunan (rapalı gölləri nəzərə almasaq) bu göllər hal-hazırda muxtəlif mənşəli tullantı suları hesabına mövcuddur. Onlar özlərini bərpa edə bilmədiklərindən su ehtiyatı kimi itirilərək, duzlaşmış və çirklənmiş su kütləsinə çevrilmişlər. Bu sular respublikadakı göl sularının təxminən 50 %-ni təşkil edir.

3. Göllər ərazi üzrə qeyri-bərabər paylanmışdır və onların sıxlıq göstəricisi (hər 1000 km²-ə düşən göllərin miqdarı) 2,4 təşkil edir. Göllərin 88%-dən artığı çox kiçik (F<0,1 km²) və kiçik (F=0,1-1 km²) göllər sinfinə aid olsa da, onlarda su səthi sahəsinin cəmi 9%-ə yaxın cəmlənib. Çox böyük (F>50 km²) sinifə aid olan 2 göldə (Sarısu və Ağğöldə) isə ümumi sahəsinin 54 %-dən artığı əhatələnib. Göllərin su səthi sahəsinin 91%-i 1 km²-dən böyük sahəyə malik olan 11 göldə cəmlənib.

Göllər respublika ərazisinin 0,35 %-ni, Kür çökəkliyinin isə 0,6 %-ni əhatə edir.

4. Təbii rejim zamanı Kür çayının gürsuludaşqınlı (may-iyun ayları) dövründə çay suları ilə qidalanan göllərdə su səviyyəsinin artımı 1-2 m və davamlı daşqınlarla müşayiət olunan vaxtlarda isə 3-4 m ola bilirdi.

Kür çayı axımının tənzimlənməsilə göllərin səviyyə rejimi tam pozulur, yəni gölə daxil olan antropogen mənşəli suların vaxtı və miqdarından asılı olaraq, maksimal və ya minimal səviyyələr ilin bütün dövrlərində müşahidə oluna bilər.

Əksər göllərdə orta dərinliyin 1,0 m olması su kütləsinin tez isinməsinə və günəş radiasiyası ilə daxil olan istiliyin 80-90%-nin buxarlanmaya sərf olunmasına şərait yaranır. Göllər dayaz, epitermik olub əsasən isti suludur,

t 10^0 C=2000-2400^0 C. Göllərin su kütləsinin azalması, antropogen təsirin aktivləşməsi və qismən də hava temperaturunun (~0,6^0 C) yüksəlməsi göllərdə orta illik su temperaturunun 1,5-3,5^0 C artmasına səbəb olmuşdur.

Antropogen yükün artması və xüsusən də su kütləsinin azalması göllərın optik və orqanoleptik xassələrini pisləşdirmişdir. Nəticədə, evfotik layın (fotosintez zonasının) dərinliyi 30-50% azalaraq suyun şəffaflığı 1,0 m olan polihumoz mühit formalaşmışdır.

5. Təbii rejim dövründə rapalı (Açınohur, Duzdağ-böyük və s.) gölləri nəzərə almasaq, digərlərinin minerallaşma dərəcəsi 1q/dm^3-ə yaxın, qıtsulu illərdə 3-5 q/dm^3 olub əsasən hidrokarbonatlı sular sinfinə aid idilər. Suda həll olmuş oksigenin miqdarı 80-110% civarında, dibə yaxın hissədə isə aerob proseslər üstün olduğundan şirin sularda yaşayan hidrobiontlar üçün optimal şərait var idi.

Antropogen təsir dövründə bu müvazinət pozulur, su kütləsinin minerallaşma dərəcəsi 10 dəfələrlə artır, kimyəvi tərkib karbonat tipindən, sulfat və xlorid tipləri istiqamətinə yönəlir. Su dövranı zəiflədiyindən həll olmuş oksigenin miqdarı 2-3 dəfə azalır və dibə yaxın hissədə hidrogen-sulfid qazının əmələ gəlməsinə şərait yaranır. Çirkləndirici maddələrin çoxluğu su kütləsi və dib çöküntülərində özünü təmizləmə-bərpa prosesini minimuma enidirir.

Dib çöküntülərinin toplanması və formalaşmasında allaxton və avtoxton komponentlərdən ibarət terrigen, xemogen və biogen mənşəli çöküntülər iştirak edir. Onların həcm çəkisi orta hesabla 1,3 q/sm^3 olub, ərazidəki məkanı və dərinlikdən asılı olaraq 1,04-1,59 q/sm^3 arasında tərəddüd edir.

Dib çöküntülərinin qalınlığı Kürətrafı axmazlarda 1-2 m, böyük göllərdə isə 2-3 m təşkil edir. Əksər göllərin su-dib sərhədindəki lillərin üst hissəsi konsistensiyasına görə yarımmayedir, yumşaq və özlüdür, nisbətən dərin (>0,5m) hissələrdə isə plastikdir.

6. Göllərin çirklənməsi və isinməsi nəticəsində şirin və az şorluqlu sularda inkişaf edən su bitkilərinin arealı və növləri azalır, onlar sıxıntı keçirir və ya məhv olurlar. Xəzər şanagülləsi, Hirkan su fındığı, ağ su zanbağı və s. yem, dərman, parfüm və estetik xassəli bitkilər çirklənməyə dözməyərək məhv olmuşlar. Süni yaranmış Candar və Mingəçevir qum karxana gölləri səthinin 10-20%-i, böyük göllərin 30-60 %-i, axmazların isə 50-100%-i su bitkiləri ilə örtülmüşdür.

Bioenerji dövranının böhranı şəraitində göllərin inkişafında qocalığa doğru meyil sürətlənir, suyun «çiçəklənməsi» və evtroflaşma prosesi özünü daha qabarıq göstərir. Tədqiq etdiyimiz göllərin 90%-i evtrof, 5%-ə yaxını mezotrof, digərləri isə rapalı və efemerdir.

Təbii rejimin pozulması ilə hidrofaunanın ekoloji durumu gərginləşir. Evriterm və evriqalinlərin inkişafı üçün münbit şərait yaranır. Vaxtilə çəki, külmə, çapaq, sıf, naxa və s. balıqlarla bol olan bu göllərdən ildə 10 minlərlə, bəzən isə 100 min sentnerdən artıq balıq ovlanırdısa, hazırda bu göllərin bəziləri qurudulmuş, digərləri isə vətəgə balıqçılıq əhəmiyyətini, demək olar ki, itirmişdir. Əgər ildə 10 minə yaxın xəzdəri tədarük olunurdusa, indi göllərin çirklənməsilə su qunduzları məhv olur.

Beləlkilə, kənd yerlərində yüzlərlə adamı işlə təmin edən və dövlətə gəlir gətirən xəzdəri tədarükü və göl balıqçılığı sənayesi bir qurum kimi məhv edilmişdir.

7. Kür çökəkliyindəki rejimi pozulmuş göllərin gələcək durumu barədə dövlət səviyyəsində sənədin hazırlanmasına ehtiyac var. Dayaz və kiçik sahəli bir çox göllərin qurudulması ilə kənd təsərrüfatına minlərlə hektar sahə qaytarıla bilər. Digər tərfdən, böyük sahəli Sarısu, Mehman, Hacıqabul və Mingəçevir qum karxanaları göllərində su balansının tənzimlənməsilə onlarla balıqçılıq və su qunduzu təsərrüfatları yaratmaq olar. Bu əsas təsərrüfatlarla yanaşı, bir sıra yardımçı sahələr olan: zəli artırılması, göl qamışının toplanaraq idman, mebel, tikinti, kağız istehsalı və s. sahələr üçün tədarükü, bəzi dekorativ və səhiyyədə istifadə olunan su bitkilərinin artırıl-

ması, ekoturizmin inkişafı və s. sahələrin yaranmasına və artımına potensial imkanlar var.

Qeyd olunan problemlərin həlli regionun ekoloji, iqtisadi və sosial durumunun yaxşılaşmasına təkan verərək, dövlətin bu istiqamətdəki qərarları ilə uzlaşmış olardı.

ƏDƏBİYYAT

MƏMMƏDOV, V.A. 1998. Göl ehtiyatları və hidroekoloji problemlər: müasir vəziyyət və perspektiv meyillər. İkinci respublika elmi-praktik konfransının materialları: *Azərbaycan XXI əsrin astanasında*. Bakı. 57-60.

MƏMMƏDOV, V.A. 1999. Azərbaycanda göl suları ehtiyatlarının kəmiyyət və keyfiyyətcə qiymətləndirilməsinin bəzi problemləri. Elmi-praktik konfransın materialları: *Su - problemlər və axtarışlar*. Bakı. 58-60.

MƏMMƏDOV, V.A. 2004. Kür çökəkliyindəki göl və su anbarlarının ekoloji vəziyyəti və problemləri. *Kür çökəkliyinin təbiəti və ekoloji problemləri* məqalələr toplusunda. Nafta-Press. Bakı. 15-27.

MƏMMƏDOV, V.A. 2006 a. Kür çökəkliyi göllərinin su kütləsində temperaturun təbii və antropogen rejim dövrlərində tərəddüdü. *AMEA xəbərləri, Yer elmləri*, 1, 103-108.

MƏMMƏDOV, V.A. 2006 b. Kür çökəkliyi göllərində orqanoleptik xassələrinin kəmiyyət və keyfiyyət göstəriciləri. *Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri*. *Cild 10, «Araz»*. Bakı. 452-457.

MƏMMƏDOV, V.A. 1998 a. Göllərin morfometriyası və su balansı. Elm. Bakı. 179 s.

MƏMMƏDOV, V.A. 1998 b. Kür çökəkliyi göllərinin əsas morfometrik xassələri. *Azərbaycan Coğrafiya Cəmiyyətinin VII qurultayının materialları*. Bakı. 176.

АЛЕКИН, О.А. 1970. Основы гидрохимии. Гидрометеоиздат. Ленинград. 444.

ВЕРЕЩАГИН, Н.К. 1986. Зоологические путешествия. Наука. Ленинград. 200.

МАМЕДОВ, В.А. 1997. Антропогенные воздействия и интенсивность динамики характерных озер Азербайджанской Республики. AVRASYA Çevre Gönüllü Kuruluşları Bilgi Merkezi. Ankara. 59-63.

МАМЕДОВ, В.А. 2003. Современное состояние водных ресурсов озер Куринской межгорной впадины, прогноз их изменения под влиянием природных и антропогенных факторов. Материалы Международной научно-практической конференции: *Создание систем рационального использования поверхностных и подземных вод бассейна Аральского моря*. ГИДРОИНГЕО. Ташкент. 12-14.

МАМЕДОВ, В.А. 2004. Проблемы загрязнения и эволюции озерных экосистем в Азербайджане. Материалы 6-ой Международного конгресса: *Вода: экология и технология*. Москва. 118.

МАМЕДОВ, В.А. 2004. Классификация озер Азербайджана по морфометрическим параметрам. *Известия НАН Азербайджана. Науки о Земле*, 4, 138-145.

МАМЕДОВ, В.А. 2005. Характер распределения и морфометрия озер Куринской впадины (в пределах Азербайджана). *Доклады НАНА*, LXI, 1, 196-2002.

Методические указания по классификации степени загрязненности поверхностных вод суши. 1984. Гидрометеоиздат. Ленинград. 58.

MAMMADOV, V.A. 2000. Water resources of the lakes of Transcaucasus and their ecological problems. 4th International Congress and Trade Fair: *Water: ecology and technology*. Moscow. 98-99.

Məqaləyə AMEA-nın müxbir üzvü Ş.B.Xəlilov rəy vermişdir

© M.K.Rəhimov, 2007

BÖYÜK QAFQAZIN CƏNUB YAMACINDA MÜASİR İQLİM DƏYİŞMƏLƏRİNİN RÜTUBƏT EHTİYATLARINA TƏSİRİ (Azərbaycan Respublikası daxilində)

M.K.Rəhimov

Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, H.Cavid prospekti, 31

Məqalədə 1961-2000-ci illər ərzində Böyük Qafqazın cənub yamacında 6 hidrometeoroloji məntəqənin sutkalıq məlumatlarına əsasən müasir rütubət ehtiyatları qiymətləndirilmiş, onların çoxillik dinamikasında regional xüsusiyyətlər aşkara çıxarılmışdır. Bu məqsədlə havanın orta sutkalıq temperaturunun 5^0 C-dən keçid tarixləri arasındakı dövr ərzində yağıntı cəmi ($\sum R_{t^0>5}$), illik yağıntı miqdarı ($\sum R_{il}$), D.İ.Şaşkonun rütubətlənmə əmsalı (Md) çoxillik zaman intervalı ərzində tədqiq olunmuş, onların çoxillik sıraları üçün bəzi statistik göstəricilər hesablanmışdır. Nəticə etibarilə müasir iqlim dəyişmələrinin bu aqroiqlim ehtiyatlarına necə təsir göstərdiyi qiymətləndirilmişdir.

Böyük Qafqazın cənub yamacının rütubət ehtiyatları bir sıra müəlliflər tərəfindən (Эйюбов, 1968; Сафаров, 2000; Шихлинский, 1968) ətraflı öyrənilmiş və Azərbaycanın aqroiqlim ehtiyatlarını əks etdirən iqlim-sorğu kitablarında sistemləşdirilmişdir (Агроклиматические ресурсы …, 1975; Əyyubov, 1993; Hacıyev, Rəhimov, 1977; Краткий агроклиматический …, 1959). Lakin bu tədqiqatlar əsasən 1970-80-ci illərə qədər olan məlumatları əhatə edirdi və orada məqsəd aqroiqlim rayonlaşdırılması xəritələrinin tərtibi olmuşdur.

Qlobal iqlim dəyişmələri ilə əlaqədar olaraq Azərbaycan ərazisində aparılan iqlim tədqiqatları göstərir ki, müxtəlif fiziki-coğrafi rayonlarda temperatur və yağıntı anomaliyalarının çoxillik dinamikasında müxtəlif tendensiyalar mövcuddur (Гадиев, Ахмедова, 1992; Сафаров, 2000). Təbii ki, qlobal iqlim dəyişmələri fonunda ölkə ərazisinin müxtəlif regionlarının aqroiqlim ehtiyatlarında da dəyişmə baş verəcəkdir.

Məqalədə məqsəd Böyük Qafqazın cənub yamacında son iqlim dəyişmələri ilə əlaqədar olaraq aqroiqlim ehtiyatlarının ən vacib komponentlərindən biri olan rütubət ehtiyatlarının çoxillik dinamikasının analizi və dəyişmə tendensiyasının qiymətləndirilməsi olmuşdur.

Böyük Qafqazın cənub yamacının müasir rütubət ehtiyatlarını qiymətləndirmək və onların çoxillik dinamikasında regional xüsusiyyətləri aşkara çıxarmaq məqsədilə 1961-2000-ci illər ərzində aşağıdakı göstəricilər tədqiqata cəlb edilmişdir:

- havanın orta sutkalıq temperaturunun 5^0 C-dən keçid tarixləri arasındakı dövr ərzində yağıntı cəmi ($R_{t>5}$);
- illik yağıntı miqdarı ($\sum R_{il}$);
- D.İ.Şaşkonun rütubətlənmə əmsalı (Md).

Böyük Qafqazın cənub yamacının rütubət ehtiyatlarını qiymətləndirmək üçün orada yerləşən 6 hidrometeoroloji məntəqənin meteoroloji məlumatlarından istifadə edilmişdir.

Çoxillik sıralar üçün aşağıdakı statistik göstəricilər hesablanmışdır: orta, maksimum və minimum qiymətlər, orta kvadratik meyiletmə (σ), median və xətti trendin korrelyasiya əmsalı (r).

Bu göstəricilərin çoxillik sırasının xətti trendi ən kiçik kvadratlar metodu ilə hesablanmışdır. Əyrixətli trendlər isə müvafiq sıranın 5 illik sürüşmə ortalaşdırılması metodu vasitəsilə hesablanmışdır. Qeyd etmək lazımdır ki, düzxətli trend rütubət göstəricilərinin çoxillik dəyişmə tendensiyasını, əyrixətli trend isə illərarası dəyişmə qanunauyğunluğunu özündə əks etdirir.

Qeyd olunduğu kimi, havanın temperaturunun 5^0 C-dən keçid tarixləri aqroiqlimşünaslıqda və kənd təsərrüfatında böyük əhəmiyyət kəsb edir. Ona görə bu dövrdə rütubət ehtiyatlarının öyrənilməsi olduqca vacibdir.

Böyük Qafqazın cənub yamacında bu dövrdə yağıntıların çoxillik dəyişmə tendensiyasının statistik parametrləri cədvəl 1-də verilmişdir.

Temperaturun 5^0 C-dən keçid tarixləri arasında düşən yağıntıların illik yağıntı miqdarı ilə çox sıx korrelyasiya əlaqələri vardır (r=0,87-0,94). Orta kvadratik meyiletmə 85-196 mm intervalında dəyişir (bax: cədvəl 1).

Cədvəl 1

Böyük Qafqazın cənub yamacında havanın temperaturunun 5^0 C-dən keçid tarixləri arasındakı dövr ərzində yağıntı cəmi, onun bəzi statistik parametrləri və illik yağıntı miqdarı ilə korrelyasiya əlaqələri

Statistik parametrlər / Məntəqələr	Orta	Max.	Min.	Orta kvadratik meyiletmə ($\overline{\sigma}$)	Mediana	Eksses	Korrelyasiya əmsalı (r)
Zaqatala	832/825	1265	538	172	806	0,001	0,92
Şəki	649/595	913	450	126	655	-0,95	0,87
Oğuz	721/830	1220	398	180	716	0,26	0,94
Qəbələ	762/725	1220	410	196	738	-0,42	0,93
Şamaxı	397/365	728	188	117	376	0,54	0,87
Mərəzə	279/205	552	147	85	251	2,13	0,90

Qeyd: Kəsrin məxrəcindəki məlumatlar əvvəlki illərin iqlim-sorğu kitabından götürülmüşdür.

Cədvəl 1-dən göründüyü kimi, Oğuz müstəsna olmaqla, tədqiq olunan ərazinin hər yerində bu dövrdə orta çoxillik yağıntıların artması müşahidə edilir. Müqayisə üçün əvvəlki iqlim-sorğu kitabından (Hacıyev, Rəhimov, 1977) məlumatlar verilmişdir.

İstər ərazinin qərb hissəisndə, istərsə də şərq hissəsində mənfi trend qeydə alınmışdır. Lakin tədqiq olunan zaman intervalı ərzində (1961-2000) yağıntının miqdarı təqribən 50-60 mm artmış, Oğuz məntəqəsində isə 100 mm azalmışdır. Bu dövrdəki yağıntı cəminin illərin sıra nömrəsindən asılılığı aşağıdakı tənliklərlə ifadə olunmuşdur:

ərazinin qərb hissəsi üçün (Şəki)

$$y= -0,7764x+664,88$$

ərazinin şərq hissəsi üçün (Mərəzə)

$$y= -2,366x+324,98.$$

Burada y-temperaturun 5^0 C-dən yuxarı olduğu dövrdə yağıntı cəmi; x-illərin sıra nömrəsidir.

Bu məlumatları əvvəlki illərin çoxillik orta göstəriciləri ilə müqayisə etdikdə (Hacıyev, Rəhimov, 1977), ümumiyyətlə, Böyük Qafqazın cənub yamacında illik atmosfer yağıntılarının azaldığını müşahidə edirik (cədvəl 2).

Böyük Qafqazın cənub yamacında illik yağıntı miqdarının çoxillik dinamikası şəkildə təsvir edilmişdir. Bütövlükdə ərazidə illik yağıntı miqdarının çoxillik dinamikasında (1961-2000) mənfi trend müşahidə edilir. Lakin qərb hissədə yağıntı miqdarının dəyişmə tezliyi daha böyükdür. İllik yağıntı miqdarının çoxillik zaman intervalında illərin sıra nömrəsindən asılı olaraq dəyişmə qanunauyğunluğunu aşağıdakı tənliklərlə ifadə etmək olar :

ərazinin qərb hissəsi üçün (Şəki)

$$y= -1,202x+822,86$$

ərazinin şərq hissəsi üçün (Mərəzə)

$$y= -2,319x+453,93.$$


Burada y-Böyük Qafqazın cənub yamacında illik yağıntı miqdarı; x-illərin sıra nömrəsidir.

Cədvəl 2

Böyük Qafqazın cənub yamacında illik yağıntı miqdarı və onun bəzi statistik parametrləri

Statistik parametrlər / Məntəqələr	Orta	Max.	Min.	Orta kvadratik meyiletmə ($\overline{\sigma}$)	Median	Moda	Eksses
Zaqatala	980/1036	1375/1600	703/600	168	988	-	0,006
Şəki	799/803	1092/1600	523/400	139	807	-	-0,33
Oğuz	908/1128	1556/1600	510/600	208	893	-	1,53
Qəbələ	987/1027	1556/1600	541/500	215	961	-	0,02
Şamaxı	588/591	975/800	254/300	152	589	-	0,37
Mərəzə	410	693	286	91	397	-	1,23

Qeyd: Kəsrin məxrəcindəki məlumatlar əvvəlki illərin iqlim-sorğu kitabından götürülmüşdür.



İllik yğıntılar cəminin çoxillik dinamikası (1), onun xətti trendi (2) və illərarası dəyişmə əyrisi (3)

1961-2000-ci illər ərzində Böyük Qafqazın cənub yamacının rütubətlənmə şəraitini və onun çoxillik dinamikasını öyrənmək məqsədilə D.İ.Şaşkonun Md rütubətlənmə əmsalını hesablamışıq. Md illik və ya vegetasiya dövründəki yağıntı miqdarı (P) həmin dövr üçün rütubət çatışmazlığı (E-e) cəminə olan nisbəti ilə ifadə olunur. D.İ.Şaşkoya görə (Эйюбов, 1968), rütubətlənmə dərəcəsi Md əmsalının aşağıda verilən şkalasına əsasən qiymətləndirilə bilər:

Md>0,60 – ifrat rütubətli zona
0,25-0,15 – quraq
0,60-0,45 – rütubətli
0,15-0,10 – yarımquru
0,45-0,25 – az rütubətli
Md<0,10 – quru

Böyük Qafqazın cənub yamacında Md əmsalının paylanma qanunauyğunluğu və onun bəzi statistik parametrləri cədvəl 3-də verilmişdir.

Orta kvadratik meyiletmə ($\overline{\sigma}$) 0,08-0,17 intervalında dəyişir. Medianın qiymətləri orta qiymətlərə uyğundur.

Böyük Qafqazın cənub yamacında 1961-2000-ci illər ərzində Md-nin çoxillik dinamikasında trend dəyişkənliyi, demək olar ki, yoxdur.

İllərarası dəyişmə əyrisində 1977-93-cü illərdə trend qiymətlərdən yuxarı, 1993-cü ildən sonra isə trend qiymətlərdən aşağı qiymətlər müşahidə edilir.

Aldığımız nəticələri Ə.C.Əyyubovun hesabladığı [3] Md əmsalları ilə müqayisə etdikdə bu əmsalın bir qədər kiçildiyi müşahidə edilir. Məsələn, onun hesablamalarına görə, Zaqatalada Md-nin orta göstəricisi 0,58, maksimum və minimum göstəriciləri isə 0,85 və 0,25 olub rütubətli zonaya aid edilirdi. Bizim hesablamalara görə isə, bu məntəqə az rütubətli zonaya aid edilir (Md=0,43) və yaxud Şamaxıda Md-nin orta göstəricisi 0,31, maksimum və minimum göstəriciləri isə 0,51 və 0,23 olub az rütubətli zonaya aid edildiyi halda, bizim gəldiyimiz nəticəyə görə bu məntəqə quraq zonaya aid edilməlidir (Md=0,22).

Cədvəl 3

Böyük Qafqazın cənub yamacında D.İ.Şaşkonun rütubətlənmə əmsalının (Md) paylanma qanunauyğunluğu və onun bəzi statistik parametrləri

Stat. parametrlər / Məntəqələr	Orta.	Max.	Min.	Orta kvadratik meyiletmə ($\overline{\sigma}$)	Median	Moda	Eksses
Zaqatala	0,43/0,58	0,87/0,85	0,15/0,26	0,16	0,40	0,45	0,37
Şəki	0,38	0,66	0,13	0,13	0,37	0,45	-0,40
Oğuz	0,41	0,88	0,12	0,16	0,40	0,25	1,40
Qəbələ	0,47	0,88	0,14	0,17	0,49	0,24	0,07
Şamaxı	0,22/0,31	0,47/0,51	0,07/0,23	0,10	0,21	0,21	0,15
Mərəzə	0,15	0,37	0,06	0,08	0,13	0,12	1,32

Qeyd: Kəsrin məxrəcindəki məlumatlar aqroiqlim atlasından götürülmüşdür.

Bu deyilənlərdən belə nəticəyə gəlmək olar :

1. Böyük Qafqazın cənub yamacında son iqlim dəyişmələri ilə əlaqədar temperaturun 5^0 C-dən yuxarı olduğu dövrdə yağıntıların miqdarı 50-60 mm artmış, Oğuz məntəqəsində isə 100 mm azalmışdır.

2. İllik yağıntı miqdarı xüsusilə tədqiq olunan ərazinin qərb hissəsində 1961-2000-ci il zaman intervalı ərzində 30-200 mm azalmışdır.

3. Md rütubətlənmə əmsalının son illər ərzində kiçildiyi (Zaqatalada 0,58-dən 0,43-ə, Şamaxıda 0,31-dən 0,22-yə qədər) müşahidə olunur ki, bu da tədqiq olunan ərazidə rütubətlənmə şəraitinin zəiflədiyini göstərir.

4. Müasir iqlim dəyişmələri mövcud aqroiqlim rayonlaşmasındakı zonaların quraqlıqlaşmaya doğru yerinin dəyişməsinə səbəb olmuşdur ki, bu da ərazinin yeni aqroiqlim rayonlaşmasını tələb edir.

ƏDƏBİYYAT

ƏYYUBOV, Ə.C. və b. 1993. Azərbaycan Respublikasının aqroiqlim atlası.

HACIYEV, Q.Ə., RƏHİMOV, V.Ə. 1977. Azərbaycan SSR inzibati rayonlarının iqlim səciyyəsi. Elm. Bakı.

Агроклиматические ресурсы Азербайджанской ССР. 1975. Гидрометеоиздат. Ленинград.

ГАДИЕВ, Ю.Д., АХМЕДОВА, Г.Б. 1992. Некоторые закономерности сезонных и многолетних колебаний температуры воздуха в Азербайджане. *Изв. АН Азербайджана. Серия наук о Земле*, 3, 6.

Краткий агроклиматический справочник по Аз. ССР. 1959. Гидрометеоиздат. Ленинград.

МАМЕДОВ, А.С. 1989. Об одной модели для исследования климата с применением в Закавказском регионе. *Изв. АН Аз.ССР*, 3, 87.

САФАРОВ, С.Г. 2000. Современная тенденция изменения температуры воздуха и атмосферных осадков в Азербайджане. Элм. Баку.

ХАЛИЛОВ, С.Г. 1999. Сценарии переходного климата в неравновесных условиях. *Бюллетень Национального Климатического Центра Азербайджана.* 3, 13-21.

ШИХЛИНСКИЙ (под ред.). 1968. Климат Азербайджана. Изд. АН АзССР. Баку.

ЭЙЮБОВ, А.Д. 1968. Агроклиматическое районирование Аз. ССР. Баку.

Məqaləyə c.e.n. X. Ş.Rəhimov rəy vermişdir